## Aprelin 5-də toplaşacaqlar

Əfv Komissiyasının növbəti iclasının vaxtı məlum olub



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclasının vaxtı məlum olub.**

Komissiyanın növbəti toplantısı aprelin 5-də baş tutacaq. Qeyd edək ki, indiyədək iclaslarda 1 300-ə yaxın əfvlə bağlı məsələyə baxılıb.

Azərbaycanda ötən il imzalanan sonuncu əfv sərəncamına əsasən, ümumilikdə 213 nəfər əfv edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan azad ediliblər. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub.

## Fransada aksiyaçılar Makronu fitə basıb



**Fransa Prezidenti Emmanuel Makron Hautes-Alpes əyalətinin Savines-le-Lak kəndinə səfər edib və pensiya islahatlarına qarşı etiraz edənlər onu fitə basıb.**

APA xəbər verir ki, bu barədə "Le Parisien" nəşri yazıb.

*Qeyd olunub ki, aksiya iştirakçıları oturaq aksiya keçirib, Makrona qarşı müxtəlif şüarlar səsləndirib və Prezidentin korteji keçərkən onu fitə basıb. Nəticədə polis qüvvələri ilə qarşıdurma yaranıb, toqquşma zamanı həbs olunanlar və xəsarət alanların olduğu bildirilib.*


№ 54 (5815) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 31 mart 2023-cü il (cümə)




## Məscidlərdə sünni-şiə söhbəti olmayacaq

Din xadimlərinə xəbərdarlıq edilib

**Mütəmadi şəkildə din xadimlərinə xüsusi olaraq tapşırılıb ki, əgər bir məsciddə işləyən ruhani sünni-şiə söhbəti ortaya atsa, heç vaxt onları öz sıralarımızda görməyəcəyik.**

Bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Fuad Nurullayev "Azərbaycanda dövlət-din münasibətləri: real durum və perspektivlər" mövzusunda keçirilən iclasda deyib.

QMİ sədrinin müavini bildirib ki, bu məsələdə dövlət də onlara dəstək olur.

"Dövlət istər məscidlərin inşası, istərsə də bərpası işində daim öz dəstəyini göstərir. Bu gün də xaricdə dini təhsil alan vətəndaşlarımız var. Əgər bünövrə sağlam qorunsa, nəticəsi də yaxşı olar. Biz bu gün dövlət-din münasibətlərində sağlam vəhdəti qoruya bilsək, sağlam əqidəmiz olar. QMİ hər zaman məzhəblərin vəhdətlərinə xüsusi önəm verir", - deyə o qeyd edib.



## Ceyhun Bayramov Yasir Ərafatın ev muzeyini ziyarət edib

**30 mart 2023-cü il tarixində Fələstin Dövlətinə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fələstin azadlıq hərəkatının lideri Yasir Ərafatın ev muzeyini ziyarət edib.**

APA xəbər verir ki, bu barədə XİN məlumat yayıb.

Ziyarət zamanı muzeyin idarə heyəti Azərbaycan nümayəndə heyətinin üzvlərinə 20-ci əsrin əvvəllərindən 2004-cü ildə Fələstin xalqının lideri Yasir Ərafatın vəfatına qədər Fələstin tarixindəki ən mühüm hadisələri əks etdirən Yasir Ərafatın ev muzeyi barəsində ətraflı məlumat verib.

Muzeyin kolleksiyaları ilə yaxından tanış olan Nazir Ceyhun Bayramov sonda muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

## Ankarada Türkiyə Milli Təhlükəsizlik Şurasının iclası keçirilib



**Ankarada Türkiyənin Milli Təhlükəsizlik Şurasının (MGK) iclası keçirilib.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, ölkə başçısı Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən iclasda ölkə daxili və xaricində baş verən hadisələr müzakirə edilib.

İclasın nəticələrinə dair yayımlanan məlumatda xarici ölkələrin PKK/YPG terror təşkilatlarına verilən hərbi-texniki dəstək, Yunanıstanla münasibətlər, Rusiya-Ukrayna müharibəsinə dair Ankaranın sülh təşəbbüsləri və ölkənin cənub-şərqində baş verən zəlzələlərin də nəzərdən keçirildiyi bildirilib.

İclasda həmçinin, 2023-cü il mayın 14-də keçiriləcək prezident və millət vəkili seçkilərinin əmin-amanlıq və təhlükəsizlik şəraitində keçirilməsi üçün görülocək tədbirlər də müzakirə edilib.

# Müdafiə Nazirliyi İrana sərt cavab verdi

"Terrorizmi dəstəkləyən İranın Azərbaycanı İŞİD-dən istifadədə ittiham etməsi gülüncdür"



**İran İslam Respublikası Ordusunun Quru Qoşunlarının Komandanı Kiomərs Heydəri tərəfindən Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlər səsləndirilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, K.Heydəri öz cəfəng fikirlərində Azərbaycanda guya "sionist" qüvvələrin olması və 44 günlük Vətən müharibəsində Azərbaycanın Suriyadan gətirilən İŞİD terroristlərindən istifadə etdiyini və onların hələ də ölkə ərazisində olduğunu iddia edir. O eyni zamanda İran tərəfindən Ermənistan ilə sərhəddə dəyişikliklərə icazə verilməyəcəyini deyir.

İlk öncə bildiririk ki, Azərbaycan Respublikası ərazisində hər hansı xarici qüvvələrin olması haqqında İran tərəfinin ittihamı əsassızdır və tamamilə qəbuledilməzdir.

(səh.3)

# Laçın yolu tamam nəzarətimizə keçir

Ermənistan tezliklə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur ediləcək



**Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb.**

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Qeyd olunub ki, Ermənistandan Qarabağa qanunsuz silah-sursat, heyət və minaların daşınmasını məhdudlaşdırmaq məqsədilə Ordumuz Gorus-Laçın rayonu istiqamətindəki sərhədimizi tam nəzarətə götürməyə məcbur qalıb.

(səh.3)

## Sergey Lavrov Türkiyəyə səfərə gəlir

Qarabağdakı vəziyyət də müzakirə ediləcək



**Rusiyanın xarici işlər naziri Sergey Lavrov 6-7 aprel tarixlərində Türkiyəyə səfər edəcək.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə deyib. "İkitərəfli məsələlərin, o cümlədən, ticarət və energetika məsələlərinin, həmçinin, Qarabağdakı vəziyyətin müzakirə ediləcəyi gözlənilir", - o deyib. Zaxarovanın sözlərinə görə, regional və beynəlxalq gündəlikdə duran aktual məsələlər, habelə, Suriya, Ukrayna, Mərkəzi Asiya və Əfqanıstandakı mövcud vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi aparılacaq. "Görüşlər zamanı geniş spektrli problemlərin, öncə qarşılıqlı maraq kəsb edən sahələrdə, o cümlədən, ticarət, energetika və turizm üzrə ikitərəfli qarşılıqlı fəaliyyətin vəziyyətinin və perspektivlərinin müzakirə olunacağı planlaşdırılır", - o deyib.

## Apreldə 12 gün iş olmayacaq



**Aprel ayında 12 gün iş olmayacaq.**

Qeyri-iş günlərinin sayı Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin "2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2022-ci il 9 dekabr tarixli 438 nömrəli Qərarına əsasən müəyyənləşib.

Belə ki, gələn ayın 21-i və 22-si Ramazan bayramıdır. 2023-sü ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq, 22 aprel şənbə gününə təsadüf etdiyindən, beşgünlük iş həftəsində 24 aprel də istirahət günüdür.

*Beləliklə, Ramazan bayramında ardıcıl olaraq 21, 22, 23, 24 aprel qeyri-iş günləridir. Ümumilikdə həftəsonları da daxil olmaqla, gələn ay 12 gün iş olmayacaq.*

## 4 nəfər vəfat edib

69 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 829 660 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 134 nəfər müalicə olunaraq sağalıb, 10 182 nəfər vəfat edib, aktiv xəstə sayı 344 nəfərdir.

*Ölkədə son sutka ərzində 957, hazırkı dövrədək isə 7 557 801 test aparılıb.*



## Qalib məlum deyil

Türkiyədə seçkilər bu dəfə çox gərgin keçəcək

(səh.3)



## Terroru təşkil edənlərin məkrli planı olub

Fazil bəyin qətlinə fərman verənlər istəyinə çatmadı

(səh.4)



aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Sənəddə Nazirlər Kabinetinə beş ay müddətində Agentliyin əsasnaməsinin və strukturunun layihələrini, habelə işçilərinin say həddi barədə təkliflərini beynəlxalq məsləhətçi şirkəti cəlb etməklə hazırlayıb, eləcə də Agentliyin yaradılması ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırıb. Nazirlər Kabinetinə, həmçinin bir ay müddətində Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin balansında olan dövlət əmlakının Agentliyin balansına verilməsini, Fərmanda nəzərdə tutulan işlərin maliyyələşdirilməsinin təmin edilməsi, habelə Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli üçün tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək barədə tapşırıq verilib.

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb

## "Azərsu" ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC yeni yaradılan Agentliyin tabeliyinə verilib

**Martın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb.**

Fərmana əsasən, su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb. "Azərsu" və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar cəmiyyətləri əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilib.

Fərmanda müəyyən olunub ki, Agentlik Azərbaycanda suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini

Agentliyin əsasnaməsi və strukturu təsdiq olunanadək "Azərsu" və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar cəmiyyətləri fəaliyyətlərini davam etdirəcək.

*Qeyd edək ki, Zaur Rauf oğlu Mikayılov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib.*

*Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.*

# Prezident Fərman imzaladı

## Yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrin bir hissəsi Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə köçürüləcək

**Yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrdən Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə də vəsait köçürüləcək.**

**Bu, Prezident İlham Əliyevin müvafiq Fərmanında əksini tapıb.**



Fərmana əsasən, yol hərəkəti təhlükəsizliyini təmin etmək və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən, nəqliyyat vasitələrinin müşayiət olunması və haqqı ödənilən digər əlavə xidmətlərdən daxil olan vəsaitin 93 faizi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi hesabına, 7 faizi isə dövlət büdcəsinə köçürülür.

# İsrail anti-İran koalisiyasında Azərbaycanı da görmək istəyir

## Lakin rəsmi Bakının siyasəti İrana qarşı cəbhə almaqdan uzaqdır

**"İsrail və Azərbaycan İran tərəfdən təhlükəni eyni cür qəbul edir". Bunu İsrailin xarici işlər naziri Eli Kohen azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə görüşdən sonra deyib. İsrailin XİN başçısı bildirib ki, İran rejimi hər iki ölkənin yerləşdiyi regionları, maliyyə imkanlarını, turizmi təhdid edir və bütün Yaxın Şərqdə sabitliyi pozur:**



"İranın nüvə potensialını inkişaf etdirməsinin qarşısını almaq üçün birlikdə hərəkət etməliyik. Bunun üçün həm siyasi, iqtisadi alətlərdən istifadə etmək, həm də etibarlı və güclü hərbi qüvvələr formalaşdırmaq lazımdır".

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, İsrailin anti-İran koalisiyası yaratmağa çalışdığı sirr deyil. Hazırda Netanyahunun beynəlxalq koalisiya yaratmaq cəhdləri hələki nəticə vermir:** "Avropada müəyyən bəyanatlar verilsə də, prosesin praktiki mərhələyə keçidi olmadı. Hətta ABŞ-də belə İrana hərbi müdaxilə ilə bağlı tərəddüdlər var. İsraildə baş verənlərin arxasında müəyyən mənada bu məqamın da olduğu hiss edilir və məsələyə Trampın Baydenə, həm də Sorosa qarşı mövqeyi ilə Netanyahunun Baydenə qarşı çıxışı kontekstində də baxmaq olar. Bu, başqa mövzudur. İsrailin anti-İran koalisiyasında Azərbaycanı da görmək istəyi bəllidir. Lakin rəsmi Bakının siyasəti İrana qarşı cəbhə almaqdan uzaqdır. Ceyhun Bayramovun İsraillə yanaşı, Fələstinə də səfər etməsi Azərbaycanın təkcə balanslaşdırılmış yox, həm də müstəqil xarici siyasi xəttinin davamıdır. Hərçənd burada İsrailin nə istədiyi, yaxud Bakının hansı siyasəti yürüdəcəyi yox, İranın sərgilədiyi mövqe həlledicidir. Tehran rejiminin mövcud siyasəti deməyə əsas verir ki, İrana hərbi müdaxilə baş verərsə, biz bu koalisiyaya qoşulmasaq belə onların hücum edəcəyi ilk ölkə Azərbaycan olacaq".

**İsmayıl**

# Qərbi Azərbaycan İcmasının fəaliyyəti davamlı və planlıdır

## "Dünya ictimaiyyəti bilməlidir ki, yüz minlərlə azərbaycanlı öz ata-baba yurdundan qovulub"

**"Qərbi Azərbaycan İcması öz hüquqlarını müdafiə etməklə və reallaşdırmaq üçün davamlı addımlar atmaqla beynəlxalq səviyyədə Azərbaycanın nüfuzunun, mövqeyinin real görüntüsünü yaradır".**



Bu sözləri "Şərq"ə açıqlamasında "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə deyib. QHT rəhbəri bildirib ki, 44 günlük Vətən müharibəsindən öncə bu barədə, məhz bu formada danışmağı və addımlar atmağı əlbəttə təsvir edə bilməzdik: "Azərbaycanın qalib gəldiyi müharibədən sonra regionda baş verən dəyişikliklər azərbaycanlıların öz hüquqlarının yeni müstəvidə müdafiəsini tələb edir. Bu baxımdan Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyinin Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayımlaması siyasi və hüquqi baxımdan çox əhəmiyyətli məqamları özündə ehtiva edir. Öncə onu qeyd etmək vacibdir ki, həmin sənədin yayımlanması Qərbi Azərbaycan İcmasının beynəlxalq səviyyədə tanınmasının göstəricisidir və artıq bu icmaya istinad ediləcək. Sənədin BMT emblemi və Təhlükəsizlik Şurası adı altında paylaşılması da Konsepsiyanı beynəlxalq münasibətlər sisteminə daxil olan bir sənəd kimi xarakterizə edir. Qurumun rəsmi saytında yayımlanması həmçinin sənədin rəsmi və etibarlı olmasına, müxtəlif məqamlarda istinad edilməsinə səbəb olacaq. Qayıdış Konsepsiyasının xüsusi və vacib başlıqlar altında yayımlanmasına da diqqəti çəkilməlidir. Qeyd olunan bəndlərin hər biri üzrə Ermənistanın hüquqi məsuliyyəti yaranmalıdır".

Cəsarət Hüseynzadə vurğulayıb ki, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə Konsepsiyanın dünya ictimaiyyətinə çatdırılması çox vacibdir: "Dünya ictimaiyyəti bilməlidir ki, yüz minlərlə azərbaycanlı öz ata-baba yurdundan qovulub. Hər bir Qərbi azərbaycanlının əlində bu faktları təsdiq edən bir neçə rəsmi sənəd var. Doğum şəhadətnaməsi, orta və ali təhsili bitirmə haqqında sənədlər, mülklərin sənədləri və digər sübutlar yüz minlərlə azərbaycanlının Ermənistan ərazində anadan olduğunu və uzun müddət yaşadığını təsdiqləyir. Bütün beynəlxalq konvensiya və prinsiplərlə təsdiq olunmuş yaşamaq hüququnun pozulması faktının aradan qaldırılması vaxtı çatıb. Konsepsiya dünya ictimaiyyətinə Qərbi azərbaycanlıların sülh yolu ilə öz doğma torpaqlarına qayıtmaq istəklərini də bildirir. Qərbi Azərbaycan İcması bu istiqamətdə davamlı addımlar atacağını bəyan edir. Yayımlanan sənəddə İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivə öz əksini tapıb. Tarixi ədalət, beynəlxalq hüquq və digər vacib mexanizmlərə əsaslanan konsepsiya eyni zamanda sülhün və birgəyaşayışın vacibliyini dünya ictimaiyyətinə çatdırır. Azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq üçün israrlı olduğunu göstərir".

*Ekspertə görə, çox müsbət haldır ki, Qərbi Azərbaycan İcmasının beynəlxalq müstəvidə fəaliyyəti davamlı və planlıdır:* "Bu, İcmanın BMT sənədi kimi yayılmış ikinci sənədidir. Bundan əvvəl yanvar ayında İcmanın beynəlxalq ictimaiyyətə müraciəti yayılmışdı. Eyni zamanda İcma Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə, Avropa Şurası Parlament Assambleyasına müraciətlər göndərib. Qərbi Azərbaycan İcması UNESCO-nun Baş direktoru Odri Azuleyə də məktub göndərərək Ermənistandakı azərbaycanlı mədəni irsinin vəziyyətinin monitorinqi üçün faktaraşdırıcı missiya göndərməyi xahiş edib. Bu addımların hər biri olduqca əhəmiyyətlidir".

**İsmayıl Qocayev**

# İrəvan Kremlin nəzarətindən çıxa bilməz

## Rusiya Ermənistanda hərbi təlimlərlə elə Paşinyan hakimiyyətinin özünə mesaj verir



**Rusiya ordusunun hərbçiləri Ermənistanda təlim keçirib. Silahlı Qüvvələrin Cənub Hərbi Dairəsinin məlumatına görə, təlimdə motoatıcı bölmələr və hava hücumundan müdafiə qüvvələrinin pilotları iştirak ediblər. Uçuşlara 130-dan çox hərbçi, 20 xüsusi texnika, o cümlədən MiQ-29 təyyarələri qatılıb. Təlim çərçivəsində şərti hədəflər sıradan çıxarılıb.**

Xatırladaq ki, martın 27-də Rusiyanın Ermənistandakı hərbi bazasının xüsusi təyinatlı hərbçiləri dağlıq ərazilərdə təlim keçirib. Martın 29-da isə hərbi bazada xidmət edən pilotlar və tankçıların təlimləri təşkil olunub. Ekspertlər Ukrayna ilə müharibə aparan Rusiyanın indiki məqamda Ermənistanda təlim keçirməsinin Azərbaycana, eyni zamanda Paşinyan hökumətinə mesaj xarakteri daşıdığını düşünürlər.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə bildirib ki, Ukrayna ilə müharibə vəziyyətində olan və bu səbəbdən ciddi təzyiqlərə, sanksiyalara məruz qalan Rusiyanın yenidən hərbi gücə müraciəti məntiqsiz addımdır. Partiya rəhbəri deyib ki, bir ildir Ukrayna və dolayısı ilə Qərblə savaşan Rusiyanın vəziyyəti yaxşı deyil:** "Ölkənin iqtisadi vəziyyəti bərbaddır və daxildə ciddi gərginlik müşahidə olunur. Ukrayna ilə müharibədə uğursuzluq rus ordusunun və texnikasının nəyə qadir olduğunu da ortaya qoydu. Belə vəziuyyətdə Moskvanın güc nümayişi anlaşılan deyil. Rusiyanın Cənubi Qafqazda ikinci cəbhə açması ancaq və ancaq öz ziyanınadır. Rusiyanın addımlarında və qərarlarında məntiq axtarmaq yersizdir. Reallıq isə odur ki, Kreml bütün işlərini hərbi gücə, silaha söykənməklə həll etməyə çalışır. Ermənistandakı təlimlər də hərbi gücün nümayişidir. Hər şeyin qaydasında olduğunu, lazım olarsa, bir neçə cəbhədə savaşa biləcəyini göstərməyə çalışır. Əlbəttə ki, həm Azərbaycana və müttəfiqimiz Türkiyəyə, həm də İrəvan hökumətinə müəyyən mesajlar vermək niyyəti güdür. Qarabağda lehimizə baş verənlərdən duyulan narahatlığın təzahürüdür. Həmçinin Ermənistana xəbərdarlıqdır ki, İrəvan Kremlin nəzarətindən çıxa bilməz, ölkədə Rusiyanın hərbi bazası var və s. İndiki halda Rusiyanın hərbi təlimlərini bu cür dəyərləndirmək olar".

**İsmayıl Qocayev**

# Hərb tariximizə qızıl hərflərlə yazılıb

## Aprel döyüşləri Vətən savaşının başlanğıc nöqtəsi idi

**"2016-cı ilin aprel ayında baş verən döyüşləri bir neçə formada xarakterizə etmək mümkündür. 1-5 aprel müharibəsi Azərbaycan Ordusunun, hərbçisinin gücü, bilik və bacarığı, silah, texnika parkımızın nümayişi üçün bir meydan oldu".**



*Bu sözləri "Şərq"ə hərbi ekspert Ramil Məmmədli Aprel döyüşlərindən danışarkən deyib. O vurğulayıb ki, Azərbaycan əsgəri mübarizə meydanında qalib gələ bildi:* "Eyni zamanda xalqımızın ordu və dövlətimizə olan inamı, etibarı daha da artdı. Ölkənin silahlı qüvvələri öz gücünü, nəyə qadir olduğunu açıq şəkildə göstərdi. Daha bir amil isə dövlətimizin rəsmi İrəvan və erməni cəmiyyətinə vurduğu böyük zərbə idi. Nəticəsini, ağrılarını isə düşmən tərəf 2-3 il sonra yaşadı. 2018-ci ildə artıq orada siyasi qarşıdurmalar baş qaldırdı. Bu gün də həmin proseslər davam etməkdədir. Ordumuz Aprel döyüşlərində taktiki əhəmiyyətli, olduqca mühüm məntəqələri nəzarətə götürdü. Talış kəndi ətrafındakı yüksəkliklər, Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımız sancılıb. Adıçəkilən yüksəkliklər vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması baxımından da zəruri idi. Strateji əhəmiyyət isə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi ilə ortaya çıxdı. Silahlı Qüvvələrimiz bir andaca hərəkətə keçərək, həmin istiqamətlərdən uzun illərdir, qurulan müdafiə xəttini darmadağın etdi, sıradan çıxardı. Aprel döyüşləri taktiki, strateji, mənəvi, psixoloji, texniki baxımdan Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı".

*Qeyd edək ki, dörd günlük müharibə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə başlayıb. Aprel döyüşləri 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin başlanğıcı, açarı olub. Döyüşlər Azərbaycan əsgərinin qələbəsi ilə nəticələnib. Dörd günlük savaş nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.*

**Sücayət Mehti**



# Laçın yolu tamam nəzarətimizə keçir

## Ermənistan tezliklə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur ediləcək

**Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.**

Qeyd olunub ki, Ermənistandan Qarabağa qanunsuz silah-sursat, heyət və minaların daşınmasını məhdudlaşdırmaq məqsədilə Ordumuz Gorus-Laçın rayonu istiqamətindəki sərhədimizi tam nəzarətə götürməyə məcbur qalıb. Yeni yolda nəzarət-keçid məntəqəsinin qurulması istiqamətində addım atılacağı da istisna deyil. Rəsmi Bakı bu məsələdə israrını davam etdirir və bu hədəfə nail olacağı şübhə doğurmur. MN-in xəbərinin ardınca Ermənistanın Baş naziri Nikol Paşinyan mətbuata açıqlama verib. O, iddia edib ki, Azərbaycan yeni eskalasiyaya hazırlaşır. Həmçinin qeyd edib ki, Azərbaycan rus "sülhməramlıları"nın məsuliyyət zonasına müdaxilə etməklə, 10 noyabr 2020-ci il razılaşmasını pozub. "Qarabağda yaşayan ermənilər Ermənistana nə hərbi yardım göndərir, nə də həmin ərazidə Ermənistan ordusu var". Baş nazir Ermənistandan Qarabağa gedən yolun marşrutunun dəyişdiriləcəyini deyib: "Ermənistandan Laçın yoluna birləşən yol tam hazır olmadığı üçün əvvəlcə Gorunzur (Kornidzor) körpüsü ilə Ermənistana daxil olan, sonra Azərbaycan ərazisindən, sonra isə yenidən Ermənistan ərazisindən keçən müvəqqəti marşrutdan istifadə edilib. Hazırkı razılaşmaya görə, bu marşrut 2023-cü il aprelin 1-dək fəaliyyət göstərməli idi. Ermənistan mövqelərində heç bir dəyişiklik olmayıb. Yeganə dəyişiklik sərhəd mühafizəsinin Ermənistan ordusundan sərhədçilərə verilməsidir. İrəvan eyni dəyişikliyi Azərbaycan tərəfinə də təklif edib".

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, Paşinyandan fərqli açıqlama gözləmək sadəlövhlük olardı. Ekspertin sözlərinə görə, Ermənistan baş naziri vəziyyətin ciddiliyini dərk edir:** "Azərbaycan Ordusu güc tətbiq etməklə Paşinyana xatırladır ki, baş nazir imza atdığı 10 noyabr üçtərəfli sazişini imzalamağa məcburdur. Hazırda Silahlı Qüvvələrimizin nəzarətinə keçən həmin yüksəkliklər əslində 2020-ci ildə götürülməli idi. Rusiya sülhməramlılarının, Ermənistanın, o cümlədən separatçıların yaxın dönəmdə doğru-dürüst qərar verəcəyini gözləyirdik. Amma onlar bizim gözləntimizi tamam başqa cür anladılar. Bundan sui-istifadə etməyə cəhdlər göstərdilər. Paşinyan absurd bəyanatlar verməK əvəzinə, yaxşı olardı ki, ciddi düşünsün. Sözügedən ərazilərin hamısı Azərbaycan torpaqlarıdır, suveren və heç bir mübahisə doğurmayan ərazilərimizdir. Hansısa yüksəkliyə postumuzu yerləşdirmək, yollara nəzarət etmək zərurəti varsa, bunu heç kimə məsləhət etmədən edəcəyik. Paşinyan düşünməlidir ki, ətrafında halqa getdikcə daralır. Ermənistan tezliklə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur ediləcək. Verdiyi heç bir sözə əməl etməyən Paşinyan söz oyunu oynayır. Məqsəd daxili autoriyanı sakitləşdirmək, toplumdakı narahatlığı qismən aradan qaldırmaqdır. "Ermənistandan Qarabağa gedən yolun marşrutu dəyişdiriləcək" deyən Paşinyan məgər imzaladığı üçtərəfli bəyanata əsasən, hansı addımların atılacağını bilmirdi? Ağlına gələni danışır. Deyir ki, "heç bir dəyişiklik baş verməyib", arxasınca bildirir ki, "yolun marşrutu dəyişib", "Azərbaycan eskalasiyaya hazırlaşır", "rus sülhməramlıların nəzarət etdiyi əraziyə müdaxilə edir" və s. Nəsə baş verməyibsə, bunları niyə iddia edirsən? Paşinyan ölkədə heç nəyə nəzarət edə bilmədiyi üçün gündə bir bəyanat verir. Ermənistan hökuməti hazırda çox böyük problemlərlə başbaşadır".

*Ü.Cəfərli vurğulayıb ki, Azərbaycan Ordusu isə ərazidə lazım olan bütün işləri tədricən görməkdədir:* "Laçın yolu işlək vəziyyətdədir və Azərbaycan tərəfi bu yolun humanitar məqsədlə istifadə ediləcəyini hər dəfə bəyan edib. İl ərzində Laçına vətəndaşlarımızın qayıdışını da təmin edəcəyik. Azərbaycan Ordusu Cağazur və Zabux kəndi arasındakı yüksəklikləri ona görə nəzarətə götürüb ki, separatçılar kənar yollardan qeyri-qanuni məqsədlər üçün istifadə etməsin, təhlükəsizlik təmin olunsun. Laçın yolunda nəzarət-buraxılış məntəqəsi, gömrük postu qurulandan sonra ermənilərin qanunsuz əməllərinin qarşısı alınmış olacaq. Bu məsələ bölgədə gərginliyin bitməsinə gətirib çıxaracaq".

**İsmayıl Qocayev**

# Müdafiə Nazirliyi İrana sərt cavab verdi

## "Terrorizmi dəstəkləyən İranın Azərbaycanı İŞİD-dən istifadədə ittiham etməsi gülüncdür"



**İran İslam Respublikası Ordusunun Quru Qoşunlarının Komandanı Kiomərs Heydəri tərəfindən Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlər səsləndirilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, K.Heydəri öz cəfəng fikirlərində Azərbaycanda guya "sionist" qüvvələrin olması və 44 günlük Vətən müharibəsində Azərbaycanın Suriyadan gətirilən İŞİD terroristlərindən istifadə etdiyini və onların hələ də ölkə ərazisində olduğunu iddia edir. O eyni zamanda İran tərəfindən Ermənistan ilə sərhəddə dəyişikliklərə icazə verilməyəcəyini deyir.

İlk öncə bildiririk ki, Azərbaycan Respublikası ərazisində hər hansı xarici qüvvələrin olması haqqında İran tərəfinin ittihamı əsassızdır və tamamilə qəbuledilməzdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının ərazisində kənar elementlər mövcud deyildir.

K.Heydəriyə xatırlatmaq istərdik ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlayıb. Bu hərbi təcavüz nəticəsində Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi də işğal edilmişdi. Lakin, İran tərəfi bir dəfə də olsun Ermənistana münasibətdə ittihamedici açıqlama verməyib. Əksinə bu dövr ərzində İran-Ermənistan qardaşlığı daha da güclənib. Bu gün də heç kimə sirr deyil ki, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa onlardan biri Fransa, ikinci isə İrandır.

Azərbaycan Respublikası bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir və dövlətlərin daxili işlərinə qarışmır.

44 günlük Vətən müharibəsində Azərbaycanın guya İŞİD terrorçularından istifadə etməsinə dair ittihama cavab olaraq bildiririk ki, şanlı Azərbaycan ordusu təkbaşına torpaqlarımızı işğaldan azad edərək zəfər salnaməsi yazıb. Bu iddia cəfəng ittiham və iftiradan başqa bir şey deyildir. Bu ittihamın məhz terrorizmi dəstəkləyən və adı dünyanın müxtəlif ölkələrində terror əməllərinin törədilməsində keçən dövlətin yüksək çinli hərbçisi tərəfindən irəli sürülməsi istehza və gülüş doğurur.

**Aygün**

# Allahşükür Paşazadə Bakıda Ramzan Kadırovun oğlu ilə görüşüb

## Görüşdə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da iştirak edib



**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan RF Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırovun oğlu, Çeçenistanın ilk prezidentinin adını daşıyan Əhməd Kadırovla görüşüb.**

Bu barədə "Şərq"ə QMİ-dən bildirilib.

Mübarək Ramazan ayında atasının salamlarını QMİ sədrinə yetirən qonaq nəfis şəkildə hazırlanmış Qurani-Kərimi Şeyxülislama hədiyyə verib.

A.Paşazadə çeçen xalqının lideri olmuş Əhməd Kadırovla bağlı xatirələrini bölüşüb, onun adını daşıyan nəvəsini bu yaxınlarda ailə qurması münasibətilə səmimi qəlbdən təbrik edib ən xoş arzularını ifadə edib, xatirə hədiyyəsi təqdim edib.

*Görüşdə Rusiya Federasiyasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksi iştirak ediblər.*

# Qalib məlum deyil

## Türkiyədə seçkilər bu dəfə çox gərgin keçəcək



**Türkiyədə prezident və parlament seçkisi öncəsi rəqib ittifaqlar arasında mübarizə kəskinləşməkdə, maraqlı proseslər yaşanmaqdadır. "Hürriyet" qəzeti yazıb ki, Məmləkət Partiyasının sədri Məhərrəm İncə prezident seçkilərində "Millət İttifaqı"nın namizədi, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlunun xeyrinə namizədliyini geri götürməkdən imtina edib.**

Partiya liderləri bir araya gələrək müzakirə aparıblar. Bir saatdan çox davam edən kritik görüşdən sonra açıqlama verən Kılıçdaroğlu vahid namizədlə bağlı razılaşmaya dair hər hansı fikir səsləndirməyib. Sadəcə bildirib ki, Məhərrəm İncə də Türkiyənin problemlərinə onun qədər həssas yanaşır: "Problemləri müzakirə etmək və həll yollarını tapmaq mənim və cənab İncənin borcudur". Prezidentliyə namizədliyini geri götürmədiyini deyən İncə isə bildirib ki, Kılıçdaroğlu ilə eyni şeyə, lakin fərqli üsullarla nail olmaq istəyirlər: "Biz bir məsələdə razılaşdıq ki, Ərdoğan getməlidir". Xatırladaq ki, Türkiyədə seçkilər 2023-cü il mayın 14-də keçiriləcək. İndiyədək dörd siyasətçinin prezidentliyə namizədliyi təsdiqlənib. Bunlar "Cümhur İttifaqı"nın namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri, hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan və altı müxalifət təşkilatının yaratdığı "Millət İttifaqı"nın namizədi, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu, müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. Namizədlərin son siyahısı martın 31-də açıqlanacaq. Aprelin 1-də Yüksək Seçki Qurumunda namizədlərin birləşmiş bülletendəki yerlərini müəyyən etmək üçün püşkatma olacaq. Türkiyənin 81 əyalətində 195 min seçki məntəqəsi fəaliyyət göstərəcək. Bu siyasi kampaniyada 64 milyondan çox seçici səs verəcək.

**Türkiyədə yaşayan yazıçı-jurnalist, Türkiyə Jurnalistlər Birliyi Ankara şöbəsinin başqanı Oktay Hacımusalı "Şərq"ə açıqlamasında bildirib ki, budəfəki prezident və parlament seçkilərinin digər seçkilərdən fərqli olaraq gərgin keçəcəyi indidən bəllidir. Ekspert deyib ki, anket sorğularına görə, 4 namizədin içərisində prezidentliyə ən şanslı və real namizəd hazırkı dövlət başçısı, "Cümhur İttifaqı"nın vahid namizədi Rəcəb Tayyib Ərdoğandır:** "Amma nəticə etibarı ilə bu, seçkidir. Ola bilər ki, əsas namizədlər hesab olunan iki tərəf, yəni R.T.Ərdoğan və "Millət İttifaqı"nın namizədi, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu 50 faizin üzərində səs yığa bilməsinlər və seçki ikinci tura qalsın. Hər bir namizədin ayrı-ayrılıqda Türkiyə siyasətindəki roluna nəzər yetirmək lazımdır. Rəcəb Tayyib Ərdoğan 20 ildən çoxdur ki, Türkiyəni idarə edir. Son iki seçkidə Ərdoğan təkbaşına iqtidar olub, şəxsən özü seçki kampaniyasında iştirak edib, mübarizə aparıb. Ətrafında böyük komanda var. Şübhəsiz ki, hakim Ədalət və İnkişaf Partiyasının (AKP)-nin rıçaqları böyükdür. Ancaq bu rıçaqlara rəğmən, Ərdoğanın özünün də qeyd etdiyi kimi, partiyada yorğunluq var. Yeni partiya əvvəlki şövqlə siyasi fəaliyyətini həyata keçirə bilmir. Bu məsələ dəfələrlə müzakirə predmeti olub. Hətta hakim AKP-nin yeni dönəmə necə girəcəyi, hansı islahatları aparacağı partiya daxilində ciddi müzakirə mövzusuna çevrilib. Görünür, bu müzakirələr seçkilərdən sonra da davam edəcək. Hakim partiyanın prezident seçkisində qalib olmaq şansı yüksəkdir, lakin parlament seçkisində çətinlik yaşaya bilər. Ancaq "Cümhur İttifaqı"na daxil olan partiyaların, yəni Milliyətçi Hərəkat Partiyası, Böyük Birlik Partiyası, Hüda Par, Yenidən Refah Partiyası və Doğu Perinceyin rəhbərlik etdiyi Vətən Partiyasının ittifaqı nəticəsində parlamentdə müəyyən güc, koalisiya formalaşa bilər. Hazırda MHP-nin səslərində düşüş yaşanır. Hakim AKP millət vəkilliyinə namizəd məsələsində yeni simaları deyil, illərlə yol qət etdiyi, ideologiyalarına sadiq qalan, cəmiyyətdə nüfuzu olan nazirləri, idarə rəislərini irəli sürdü. Bunların arasında vitse-prezident Fuad Oktay da var. Yəni hakim partiya siyasi səhnəyə güclü namizədlərlə çıxmağı hədəfləyir. Təbii ki, yetərli səsi qazana biləcəyi sual altındadır. Qeyd edim ki, budəfəki parlament Türkiyə tarixində yeni dönəmə keçid kimi xarakterizə olunur. Müxtəlif düşüncə və fikirlərin parlamenti olacağını deyirlər. Çünki orada bütün siyasi güclər təmsil olunacaq".



Hələ cəmiyyətdə ciddi mənada "kimə səs verəcəyik" sualı var

*O.Hacımusalı vurğulayıb ki, müşahidələrə görə, "Millət İttifaqı" daha aktiv, fəal görünür və bu fəallıq cəmiyyətdə çaşqınlığa səbəb olur:* "Yeni insanlar kimə səs verəcəklərini ətrafında düşünür, götür-qoy edirlər. Seçkiyə təqribən bir aylıq zaman qalmasına baxmayaraq, hələ cəmiyyətdə ciddi mənada "kimə səs verəcəyik?" sualı var. "Cümhur" və "Millət" ittifaqlarından əlavə "ATA" ittifaqının yaranması, Məmləkət Partiyasının sədri Məhərrəm İncənin namizədliyini irəli sürməsi insanlarda müəyyən seçim imkanı yaratsa da, bitərəf qalmağı üstün tutan, seçkiyə getmək niyyətində olmadığını söyləyənlər də var. Vurğulamaq lazımdır ki, narazılıq əsasən milliyətçi qanaddan idi. Həm MHP sədri Dövlət Baxçalını, həm İYİ partiya sədri Meral Akşeneri və Ümid Özdağı bəyənməyən, yol xəritəsi cızmaqda çətinlik çəkən sağ-mühafizəkarda, milliyətçi-ülkücü kəsimdə qərarsızlıq, sistemsizlik mövcud idi. "ATA" ittifaqının vahid namizədi, milliyətçi Sinan Oğanın namizədliyi bu problemin həllinə çevrilə bilər. Əgər prezident seçkisi ikinci tura qalarsa, o zaman həm Sinan Oğan, həm də Məhərrəm İncə həlledici səs potensialına sahib olacaqlar və gələcəkdə kimin prezident olacağına yön verəcəklər. Düşünürəm ki, həm Sinan Oğan, həm Məhərrəm İncə Türkiyənin stabilliyinin təminatçısı olacaqlar. Yəni öz dəstəklərini hakim AKP-yə verəcəklər. Sosial mediada israrla "Cümhur İttifaqı"nın seçkidə məğlub olacağını, "Millət İttifaqı"nın qazanacağını iddia edənlər var. Lakin ittifaq daxilindəki partiyalara baxsaq, görərik ki, seçkidə qalib olsalar belə "Millət İttifaqı"nın güclü Türkiyənin gələcəyi, geosiyasi vəziyyətin davamlılığı üçün atacağı addımların nədən ibarət olacağı sual altındadır. Çünki ittifaqda yer alan siyasi partiyaların heç birinin vahid düşüncəsi, konsepsiyası yoxdur. Təsəvvür edin ki, indiki CHP Mustafa Kamal Atatürkün getdiyi yolla əlaqəsi olmayan marjinal bir qrupun əlində oyuncağa çevrilib. İYİ Partiya əvvəllər öz içində millətçi, ülkücü qanadı himayə edirdisə, Yavuz Aliağıroğlu və Koray Aydının sədr müavinliyindən uzaqlaşdırılmasından sonra partiyada rəhbərliyə qarşı ciddi etiraz formalaşdı. Rəhbərlik isə tənqidlərə cavab olaraq bildirdi ki, İYİ Partiya artıq milliyətçi və ülkücü maraqlara xidmət edən təşkilat yox, sağ-mərkəzçi yolu izləyən partiyadır. Y.Alıağıroğlunun istefası və rəhbərliyin açıqlaması İYİ partiyadan müəyyən qopmaların olacağının anonsu idi. Bu kataklizmlər, şübhəsiz, "Millət İttifaqı"nın səs faizinə təsirsiz ötüşməyəcək. Hətta İYİ Partiyaya veriləcək səsin müəyyən hissəsinin "Cümhur İttifaqı"na getməsi, nəticədə Meral Akşenerin məcburiyyət qarşısında qalaraq "Cümhur İttifaqı"na meyillənməsi ehtimalı da mövcuddur. Əslində bu, bir müddət öncə də baş verə bilərdi, ancaq hansısa qüvvə Akşenerin "altılı masa"dan qalxmasına imkan vermədi".

*Jurnalist bəyan edib ki, sabiq baş nazir Ahmet Davudoğlunun sədri olduğu Gələcək Partiyasının siyasi sferada hansı addımlar atacağı da qeyri-müəyyəndir:* "Ümumiyyətlə, bu partiyanın strategiyası bəlli deyil. Nəzərə alaq ki, Davudoğlu hakimiyyətdə olduğu dövrdə AKP-nin və Ərdoğanın odlu-alovlu müdafiəçisi, dəstəkçisi olub. Vəzifədən və partiyadan uzaqlaşdırıldıqdan sonra Ərdoğana qarşı mövqe sərgiləməyə başladı. Ola bilər ki, siyasi texnoloq olaraq Davudoğlu xarici siyasətdə ciddi fiqur sayılsın, amma daxili siyasətdə bunu demək olmaz. Ona etimad azdır, çünki insanlar haqlı olaraq sual edirlər ki, əgər belə problemlər var idisə, niyə bunu Ərdoğanın yanında olanda dilə gətirmirdi? Əli Babacanın və rəhbərlik etdiyi DEVA partiyasının isə proseslərə yanaşması çox fərqlidir. Onun HDP ilə bağlı fikirləri, əlaqələri ortadadır. İslamçı Səadət Partiyasının bu ittifaqda yer alması da ictimaiyyətdə anlaşılmazdır. Xalqların Demokratik Partiyası (HDP) haqqında fikirlər isə birmənalı deyil. Türkiyədə böyük əksəriyyət HDP-nin terrorçu PKK-nin siyasi qanadı olduğunu bildirirlər. HDP-dən olan millət vəkillərinin ya özləri, yaxud yaxın qohumları PKK ilə əlaqədə olublar. Bəlkə də hələ əlaqələri davam etməkdədir. Seçkidə hansı ittifaqın qalib olacağını, bundan sonra nələrin baş verəcəyini zaman göstərəcək. Azərbaycan pəncərəsindən proseslərə baxsaq, şübhəsiz ki, biz Azərbaycan-Türkiyə münasibətlərinin olduğu kimi davam etməsinin, qırılma yaşanmamasının tərəfdarıyıq. Ancaq "Millət İttifaqı"nın bu məsələdə yanaşması bir az fərqlidir. İttifaqda təmsil olunan partiya təmsilçilərinin Azərbaycanla bağlı fikirlərinə diqqət yetirsək, iqtidar dəyişikliyində Azərbaycanı nələrin gözlədiyini görə bilərik. Sadəcə bir məqamı xatırladım ki, 44 günlük müharibə zamanı CHP-nin sədr müavini Ahmet Ünal Çeviköz "Türkiyə Azərbaycana cihadçıları göndərir" iddiasını səsləndirmişdi".

**İsmayıl Qocayev**

# Terroru təşkil edənlərin məkrli planı olub

## Fazil bəyin qətlinə fərman verənlər istəyinə çatmadı



**Martın 28-də yaşadığı evin qarşısında sui-qəsd cəhdinə məruz qalan Milli Məclisin deputatı Fazil Mustafanın vəziyyəti yaxşılaşır. Bu barədə deputatın qardaşı İlqar Mustafayev məlumat verib. O deyib ki, artıq hər şey geridə qalıb, qardaşının vəziyyəti günbəgün yaxşı olacaq:**

"Müalicəsi həkimlərin nəzarətində davam edir. Həkimlər vəziyyətinin günbəgün daha da yaxşı olduğunu deyirlər. Artıq reabilitasiya prosesi gedir. Ona sakitlik lazımdır. Şükür olsun ki, həyati təhlükəsi yoxdur. Həkimlərin dediklərinə görə, növbəti əməliyyatlara ehtiyac olmayacaq". Millət vəkilinin köməkçisi Əjdər Əliyev istintaqın davam etdiyini və çox yaxın müddətdə ictimaiyyətə bununla bağlı məlumat veriləcəyini bildirib: "İstintaq prosesi aparılır. Bu, dövlətin diqqətində olan məsələdir. Çox qısa müddətdə ictimaiyyətə istintaqla bağlı məlumat veriləcək. Fazil bəyin sağlamlığı ilə bağlı heç bir problem yoxdur. Hər şey qaydasındadır. Hələ ki, evə buraxılacağı tarix bəlli deyil". Ə.Əliyev son zamanlar Fazil Mustafanın təhdid mesajları aldığını açıqlayıb:

"Fazil bəyə qarşı kifayət qədər təhdidlər olmuşdu. Ölkə daxilində olan müəyyən qruplar, fərdlər var idi və onların kimlərin əlində oyuncaq olduğunu bilirik. Bu dəqiqə təcavüzkar planları ilə Azərbaycanı təhdid edən İrandır. Fazil Mustafa da elə İran tərəfdən təhdidlər alırdı. "Fazil Mustafa ölməlidi, güllələnməlidi" kimi təhdidlər alırdıq. Bu hadisə sifarişli və hazırlanmış hadisədir".

"Fazil bəyə qarşı təşkil edilən sui-qəsdlə yanvarın 27-də Tehrandakı səfirliyimizə edilən basqın arasında qəribə bir paralellik, oxşarlıq mövcuddur. Hər iki olayda kibermәkandan istifadə və kibermәkana hesablanmış fəaliyyətlər var"

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlü bildirib ki, millət vəkili, dəyərli maarifçi, ziyalı Fazil Mustafaya qarşı təşkil edilən sui-qəsddə əsas məqsəd onun öldürülməsi olub. Bu, açıq-aydın görünür:** "Deməli, bu terroru təşkil edənlərin hədəfi Fazil bəyin qətli üzərində hansısa ssenariləri həyata keçirmək, onun şəxsiyyətinə və düşüncələrinə diqqət çəkmək və məhz bu dalğa üzərində böyük bir fitnə çıxarmaq, qarşıdurma yaratmaq və nəticə əldə etmək olub. Yalnız Allahın möcüzəsi Fazil bəyi də, ölkəmizi də bu məkrli qüvvələrin növbəti qanlı tələsinə düşməkdən xilas edib. Bizim hüquq-mühafizə orqanlarımızın işinə qətiyyən müdaxilə etmək niyyətimiz yoxdur. Ancaq sosial şəbəkələr üzərindən bu hadisəyə verilən reaksiyaların təhlilindən gəldiyimiz ilkin qənaət budur ki, Fazil bəyə qarşı təşkil edilən sui-qəsdlə yanvarın 27-də Tehrandakı səfirliyimizə edilən basqın arasında qəribə bir paralellik, oxşarlıq mövcuddur. Hər iki olayda kibermәkandan istifadə və kibermәkana hesablanmış fəaliyyətlər var. Mümkündür ki, hər iki hadisədə sifarişçi elə eyni mərkəzdir. Birincidən nəticə alınmadığından, ikincisinə keçilib. 1970-ci illərin sonları 1980-ci illərin əvvəlləri Böyük Britaniyanın "Mİ6" kəşfiyyat xidmətinin zabiti, islamşünas alim Bernard Lyuis ABŞ Prezidenti Karterin təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bjezinskiyə tövsiyə etmişdi ki, bütövlükdə Cənubi və Mərkəzi Asiyada sabitliyi pozmaq üçün bu coğrafiyada islam fundamentalizmindən istifadə etmək, ənənəvi məzhəb qarşıdurmasından yararlanmaq lazımdır. Çünki bu coğrafiyada yaşayan xalqların dəyişməz genetik kodu islamdır. Təəssüf ki, indi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas qovşağı olan Azərbaycanımızı da hansısa qüvvələr addım-addım məzhəb qarşıdurmalarının yeni poliqonuna çevirməyə çalışırlar. Allah Azərbaycanımızı qorusun!".

**İsmayıl**





# "MEDİAlab" layihəsi çərçivəsində tələbələr üçün infosessiya keçirilib

**Martın 29-da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "MEDİAlab" layihəsi çərçivəsində ali təhsil müəssisələrinin tələbələri üçün infosessiya keçirilib.**

Tədbirdə açılış nitqi ilə çıxış edən Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, bu layihə media sahəsində innovasiya və inkişaf yönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və gənclərin bacarıqlarının inkişafında müstəsna rol oynayacaqdır.

Tədbirin davamında MEDİA Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova media sahəsində gənc və peşəkar mütəxəssislərin hazırlanması və tendensiyalara uyğun rəqəmsal media bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Sonra MEDİA Agentliyinin nümayəndəsi Aytən Babayeva "MEDİAlab" layihəsinin təqdimatını edərək, layihənin əsasən iki komponentdən - maarifləndirmə və bacarıqların inkişafından ibarət olacağını bildirib.

MEDİA Agentliyinin nümayəndəsi Aynur Zeynallı isə layihə çərçivəsində keçirilən sorğunun nəticələri və bir illik fəaliyyət planı haqqında məlumat verərək, növbəti mərhələdə müxtəlif ardıcıl inkişaf proqramlarının təşkil olunacağını vurğulayıb.

Tədbirin ikinci hissəsində Azərbaycan Televiziyasının "Xəbərlər" proqramının aparıcısı, telejurnalist Ruslan Həsənov tərəfindən "Newslab" - yaradıcı düşünmə, məzmun istehsalı və xəbər hazırlanması ilə bağlı bacarıqların inkişafı vörkşopu keçirilib. İnteraktiv müzakirə formatında keçirilən sessiyada Ruslan Həsənov iştirakçıları maraqlandıran sualları cavablandırıb, onlara praktik tapşırıqlar verib.

"MEDİAlab" layihəsinin əsas məqsədi texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.

**Aygün**



## Tural Abbaslı meyxanaçını partiyasına dəvət etdi

### "Mədəniyyət Nazirliyi Rövşən qardaşımıza sahib çıxmalıdır"

**"Vətən müharibəmizin "Can gedirik almağa" mahnısı ilə az qala himnini yazan Rövşən Binəqədili bu gün dövlətimizin və telekanalların diqqət mərkəzindən kənarda qalıb".**

Bu sözləri Ağ Partiyanın başqanı Tural Abbaslı özünün feysbuk səhifəsində yazıb. Onun sözlərinə görə, bayağı müğənnilərlə efirlərini dolduran telekanallarımız onu verilişlərinə çağırmırlar: "Mədəniyyət Nazirliyinə müraciət edirik. Vətənpərvərlik mahnıları ilə milyonların qəlbinə yol tapan Rövşən qardaşımıza sahib çıxın! Bu həm də nazirliyin vəzifə borcudur!".

## İmkanlar genişlənir

### Bakı İsrail və Fələstin arasında vasitəçi ola bilər



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Fələstin xarici işlər naziri Riyad Əl-Maliki ilə görüşüb.**

Bununla bağlı Fələstin Xarici İşlər Nazirliyinin rəsmi tviter hesabında məlumat verilib.

**Görüşün əhəmiyyətini "Şərq"ə açan politoloq Samir Hümbətov vurğulayıb ki, Azərbaycan Fələstinlə çox yaxşı tərəfdaşlığa və əlaqələrə malikdir:** "Azərbaycan tərəfi İsraildə səfirliyin açılması ilə paralel olaraq Fələstində də nümayəndəliyin açılması barəsində qərar qəbul etdi.

Bu o deməkdir ki, Azərbaycan təkcə İsraillə yox, Fələstinlə də əlaqələrinin inkişafında maraqlıdır. Bu sahədə isə artıq addımlar atıb və nümayəndəliyin açılması həyata keçirilib.

Belə olan halda Azərbaycan-İsrail, Azərbaycan-Fələstin münasibətlərinin inkişafı gələcəkdə rəsmi Bakının İsrail-Fələstin arasındakı münasibətlərin yaxşılaşdırılmasında vasitəçi olmaq imkanı yaradır. Buna dair isə Azərbaycanın yetərincə təcrübəsi var və müəyyən mənada bu addımlar atıla bilər.

Təbii ki, bu, tərəflərin istəyindən və beynəlxalq şəraitindən də asılı məsələdir. Ümumiyyətlə, indiki məqamda Fələstin-İsrail münasibətlərinin normallaşdırılması üçün Azərbaycanın da müəyyən qatqısının ola biləcəyini düşünürəm.

Bu baxımdan Ceyhun Bayramovun İsraillə bərabər, Fələstinə də səfər etməsi xüsusi əhəmiyyət kəsb edir".

**Nihat**

# 31 Mart soyqırımının 105-ci ildönümüdür

## 1918-ci ilin fevral və mart aylarında güneyimizin Urmiya, Sәlmas, Xoy və digər bölgələrində də on minlərlə Azərbaycan türkü soyqırıma məruz qalıb





**Bu gün erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi 31 Mart soyqırımının 105-ci ildönümüdür. 1918-ci ilin mart soyqırımları ermənilərin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətinin sadəcə bir hissəsi idi.**

Müxtəlif üsullarla Azərbaycan ərazisində məskunlaşdırılan ermənilər sayca azlıq təşkil etsələr də, öz havadarlarının himayəsi altında inzibati bölgü yaradılmasına nail olmuşdular. Bununla da azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulmuşdu. Uydurma "böyük Ermənistan" xülyasından ruhlanan erməni təcavüzkarları XX əsrdə azərbaycanlılara qarşı amansız qanlı aksiyalar həyata keçirirdilər. Əvvəlcə Bakı şəhərində başlanan erməni vəhşilikləri qısa zamanda Azərbaycanın bütün ərazisinə yayılmışdı. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 197 kənd dağıdılıb. Sakinlərin bir qismi qətlə yetirilib, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşüb, əmlakları talan olunub, evləri isə yerlə yeksan edilib. 1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüası altında maskalanaraq, daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdı. Azərbaycanlıların soyqırımından bəhs ediləndə daha çox 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Lənkəranda və digər bölgələrdə erməni hərbi qüvvələrinin törətdikləri qırğınlardan danışılır. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazıb: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər". Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazıb. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin, ingilislərin və rusların yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda mart qırğını zamanı on minlərlə azərbaycanlının qətlə yetirildiyini bildirmişdi.

Xalqımıza qarşı soyqırım güney Azərbaycan şəhərlərində də baş verib. Ermənilərin təşkilatçılığı ilə vaxtilə ruslar tərəfindən Cənubi Azərbaycan ərazisinə yerləşdirilən Aysorlarda bu hadisələrdə ermənilər tərəfdən çıxış ediblər. Hadisələr öncə Urmiya şəhərində başlasa da, hələ 1917-ci ildən ermənilərin yerli türklərə hücumları adi hal almışdı. Urmiyadakı ABŞ nümayəndəsi Şedin təşəbbüsü və zəmanət ilə tərk-silah edilmiş şəhər sakinləri ermənilərə müqavimət göstərə bilmədilər. Seyid Əhməd Kəsrəvinin yazdığına görə, toplardan da istifadə edən erməni-aysor dəstələri, bunun sayəsində şəhərdə xeyli insanın öldürülməsinə nail oldular. İran arxiv materiallarına əsasən, təkcə 1918-ci ilin, mart ayının 17-də, axır çərşənbə günü erməni-daşnak dəstələri və aysor dəstələri 500-dən çox evi yandırıb, on mindən çox insanı isə qətlə yetiriblər. Xalq arasında "Urmi bəlası" kimi bilinən bu hadisələr xalq folklorunda hələ də yaşamaqdadır. Bu hadisələr təkcə Urmiyada baş verməyib. Salmas, Xoy, Maku, Dilməqan şəhərlərində də olub. 1918-ci ilin iyununda, Kazım Qarabəkir Paşa rəhbərliyindəki Osmanlı ordusunun Cənubi Azərbaycana daxil olmasından sonra bu hadisələrin qarşısı alınıb. 1918-ci ilin iyununu da Xoy şəhərinə daxil olan türk ordusu, oradan soyqırımın hələ də davam etdiyi Salmasa yönəlib. Bir neçə günlük döyüşlərdən sonra erməni-aysor dəstələri darmadağın edilib. Cənubi Azərbaycandakı məğlubiyyətin xəbərini eşidən Andronik qisas və Xoy şəhərini almaq üçün 8 minlik qoşunla Culfadan Xoya hücuma başlayıb. 1918-ci ilin, iyun ayının 24-də Xoy şəhəri erməni qüvvələri tərəfindən mühasirəyə alınıb. Şəhərdə qalmış azsaylı Osmanlı qüvvələri və şəhər sakinlərinin könüllü dəstələri müqaviməti təşkil ediblər. Salmasdan Osmanlı qoşununun yaxınlaşdığı xəbərini eşidən erməni qoşunları geri çəkilməyə başlayıblar. Geri çəkilərkən yolüstü bütün şəhər və kəndlər yandırılıb.

**Tarixçi-alim Faiq Ələkbərli "Şərq"ə açıqlamasında deyib ki, 1918-ci ilin 31 mart tarixində Bakı, Quba, Lənkəran, Salyan, Şamaxı və digər bölgələrdə törədilmiş soyqırımların əsas təşkilatçısı sadəcə ermənilər deyildi. Alimin sözlərinə görə, erməni daşnaklarını dəstəkləyən xarici qüvvələr də var idi:** "Həmin dövrdə yenicə yaranmış sovet Rusiyası ciddi şəkildə erməni daşnaklarına, sosialistlərə dəstək verirdi. Rusiya ermənilərlə yanaşı, başqa anti-türk, anti-Azərbaycan düşmən qüvvələrə dəstəyini əsirgəmirdi. Təbii ki, xalqımıza qarşı soyqırımların törədilməsində ermənilər ön planda idi. Rusiya ilə paralel Fransa, ABŞ, Böyük Britaniya da erməni daşnaklarına dəstək vermişdi. Məqsəd bəlli idi. Əgər ermənilər və onların himayədarları sadəcə Şimali Azərbaycanda soyqırımlar törətsəydilər, o zaman məsələyə başqa aspektdən yanaşa bilərdik. Erməni daşnakları sadəcə Azərbaycanın quzeyində qətliamlar törətməyiblər. Eyni vaxtda soyqırımlar Güney Azərbaycanda da təşkil olunub. 1918-ci ilin fevral və mart aylarında güneyimizin Urmiya, Səlmas, Xoy və digər bölgələrində on minlərlə Azərbaycan türkü soyqırıma məruz qalıb. Soyqırımları təşkil edənlərin arxasında xristian "aysoru" adlı qondarma "dövlət" yaratmışdılar. Onun tərkibində xristian aysorlar, ermənilər və yezidi kürd qruplaşmalar var idi. Məqsəd bütöv Azərbaycanı müsəlman-türk əhalidən təmizləməklə böyük bir "xristian dövləti" qurmaq idi. Ermənilər öz məqsədlərinə qismən çatdılar. Şimali Azərbaycanın tarixi torpaqlarında, İrəvan və ətrafında "erməni dövləti" yaratmağa nail oldular. Ancaq ermənilərin məqsədi Azərbaycan torpaqları hesabına daha geniş ərazidə öz "dövlətlərini" qurmaq idi. Sovet Rusiyasının rəhbəri V.İ.Lenin hansı səbəbdən Stepan Şaumyanı Qafqazın fövqəladə və səlahiyyətli səfiri təyin etmişdi? Bilirik ki, həmin dövrdə Bakı Xalq Komissarları Soveti var idi və Şaumyan onun sədri idi. Bu da təsadüfi deyildi və məqsəd quzey Azərbaycanı türk-müsəlman əhalidən təmizləmək idi. Hətta o zaman belə bir şüar ortaya atmışdılar ki, "türklər Orta Asiyadan gəlmədir, ya gəldikləri yerə geri dönməli, ya da tamamilə məhv olmalıdırlar". Açıq-aşkar bu təbliğatı aparırdılar. Leninin Şaumyanı "sosialist" adı altında Qafqazda yüksək vəzifəyə təyin etməsi də bu məqsədə xidmət edirdi. Soyqırımların və həyata keçirilən siyasətin yarımçıq qalmasının səbəbi Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycana köməyə gəlməsi oldu. Qafqaz İslam Ordusu böyük fədakarlıq göstərərək bölgədə türklərin tamamilə soyqırıma məruz qalmasının qarşısını aldı. Güney Azərbaycandakı soyqırımlar isə Osmanlı orduları komandanı Ali İhsan Paşanın bölgəyə gəlməsi nəticəsində demək olar ki, sona çatdı. Bütövlükdə şimali və cənubi Azərbaycan şəhərlərində yüz min insan soyqırıma məruz qalmışdı. Şükürlər olsun ki, xalqımıza qarşı soyqırım törədənlərin cavabları verildi və onlar cəzalandırıldı".

**İsmayıl Qocayev**

# Qarabağ dirçəlir

## Yeni idarəetmə modeli tezliklə bəhrəsini verəcək

**Prezident İlham Əliyev Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədovu qəbulu edərkən bir sıra mühüm məsələlərə toxunub. Dövlət başçısı əldə etdiyimiz tarixi Zəfərimizdən, Laçının necə azad edilməsindən danışıb. Tarixə qısa ekskursiya edərək Laçının və digər ərazilərimizin nə üçün işğala məruz qalması məsələlərinə də toxunub.**




*"Kadrlar hər şeydən öncə müasir dövrümüzün tələblərinə, çağırışlarına cavab verməlidir"*

Nəhayət, 2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında digər bütün işğal olunmuş rayonlarımız kimi Laçın da işğaldan azad edildi. Laçın həm döyüş meydanında, həm siyasi yollarla işğaldan azad olundu. Təkcə bu fakt özlüyündə müharibə tarixinə düşəcək qədər əhəmiyyətli faktdır. Çünki heç bir hərbi-siyasi iradə müharibənin taleyini həll edəcək geostrateji əhəmiyyətə malik olan belə ərazini döyüşsüz tərk etməz. Ancaq Azərbaycan Ermənistanı buna məcbur etməyi bacardı. İndi isə Laçın yenidən öz 30 il onun həsrəti ilə yaşamış öz doğma sakinlərini qəbul etməyə hazırlaşır. Laçında hava limanı tikilir, yollar çəkilir, məktəblər, uşaq bağçaları inşa edilir. Bir sözlə, Laçın əvvəlki şöhrətinə qovuşur. Bütün bunlar isə Azərbaycanda həyata keçirilən və milli maraqlarımıza əsaslanan strateji siyasət sayəsində mümkün olub.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin martın 28-də Məsim Məmmədovu qəbul edərkən səsləndirdiyi fikirlər ölkəmiz üçün əhəmiyyət kəsb edən və cəmiyyətimizi düşündürən bir sıra məsələlərə aydınlıq gətirilməsi baxımından olduqca aktualdır. Partiya sədrinin sözlərinə görə, ilk növbədə yerlərdə yeni idarəetmə üsulunun tətbiq edilməsi perspektivləri ilə bağlı səsləndirilən fikirlər hər kəsin diqqət mərkəzindədir:** "İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən xüsusi nümayəndəlik institutu özünü artıq müsbət yöndən təsdiqləməkdədir. Görünən budur ki, yeni üsulun tətbiqi idarəetmənin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır. Ehtimal var ki, bu yeni idarəetmə modeli gələcəkdə ölkəmizin bütün digər hissələrində də tətbiq ediləcək. Cənab Prezident Laçın rayonuna təyin olunan xüsusi nümayəndəni qəbul edərkən bunun anonsunu verdi.

Hesab edirik ki, yeni modelin tətbiqi təkcə azad edilmiş əraziləri yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcək. Milli Həmrəylik Partiyası olaraq özünü doğrultmayan icra başçıları sisteminin yeni ərazi idarəetmə strategiyası ilə əvəzlənməsinin tərəfdarıyıq. Prezidentin bu yöndə atacağı addımları, həyata keçirəcəyi kadr islahatlarını, struktur islahatlarını dəstəkləyəcəyik. Çünki vətəndaşların əsas narazılıq ünvanlarından biri də məhz icra başçılarıdır. Odur ki, yerli icra hakimiyyətləri ilə bağlı köklü dəyişikliklərin həyata keçirilməsi labüddür. Bu, dövlət başçımızın başlatdığı yeni islahat mərhələsinin əsas istiqamətlərindən biridir".

*Ə.Hüseynova görə, istər yeni ərazi idarəetmə modeli, istərsə də bu modelin bilavasitə tətbiqini həyata keçirmək üçün təyin olunan kadrlar hər şeydən öncə müasir dövrümüzün tələblərinə, çağırışlarına cavab verməlidir. Şəffaflıq prinsipi əsasında fəaliyyət göstərməli, vətəndaşların problemlərinin həllinə maksimum diqqətlə yanaşmalıdır. Təyin olunduqları rayonların gələcək inkişafı ilə bağlı, iş yerlərinin yaradılması ilə bağlı, sərmayələrin cəlb olunması ilə bağlı konkret əlavə təkliflər verməlidirlər:* "Bütün bunlar dövlət başçısı tərəfindən xüsusi nümayəndələr qarşısında qoyulan mühüm strateji vəzifələr sırasına daxildir. Biz inanırıq ki, Prezidentin xüsusi nümayəndələri çevik idarəetmə qabiliyyətləri ilə, insanlarla rahat kommunikasiya qurmaq və işləmək bacarıqları ilə bu vəzifələrin öhdəsindən layiqincə gələcəklər. Prezidentin fikirlərində həmçinin "Böyük Qayıdış"ın növbəti mərhələlərinin reallığa çevriləcəyi günün uzaqda olmadığı ilə bağlı əminliyi, inamı da açıq şəkildə hiss etdik. Prezident minlərlə soydaşımızın artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacağının, keçmiş məcburi köçkünlərin bu il öz doğma diyarına qayıdacaqlarının müjdəsini verdi. Ümumən bu il və gələn il Laçın rayonuna təqribən 10 minə yaxın sakin yerləşdiriləcək. O cümlədən birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşdiriləcək. Qayıdış planının baş tutması üçün Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Bütün bu işlərin cari ilin sonuna qədər başa çatdırılması planlaşdırılır".

**Politoloq vurğulayıb ki, dövlət başçısının Ermənistana və ona havadarlıq edən dövlətlərə mesajları da olduqca önəmlidir:** "Prezident birmənalı şəkildə bildirdi ki, Azərbaycanla ultimatum dili ilə danışmaq mümkünsüzdür. Bu, kifayət qədər qətiyyətli və prinsipial mövqedir. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi öz müsbət nəticəsini verəcək. Ölkə başçısının fikirlərində işğal dövründəki Fransa ilə, 44 günlük müharibədən sonrakı Fransanın Azərbaycana münasibətdə yürütdüyü ikiüzlü, riyakar siyasətinin ifşa olunmasını da müşahidə etdik. Dövlət başçısı istər Fransanın, istərsə də Avropa Parlamentinin ölkəmizə qarşı ədalətsiz münasibətinin heç də təsadüfi olmadığını vurğuladı. Bu gün Ermənistana havadarlıq edən Fransanın və digər ölkələrin açıq-aşkar "ikili standart"lar siyasəti yürütməsi heç kimə sirr deyil. Böyük dövlətlərin riyakarlığı və beynəlxalq hüquqa qarşı saymazyanalığı artıq o həddə gəlib çatıb ki, onlar bunu hətta gizlətməyə də cəhd göstərmirlər. Lakin bütün bu anti-Azərbaycan qüvvələr artıq bizim gücümüzə və iradəmizə bələddirlər. Onlar istər 44 günlük İkinci Qarabağ müharibəsində, istərsə də müharibədən sonrakı iki il yarım müddətində bizim əyilməz iradəmizi gördü. Azərbaycan öz haqqını həm sahədə, həm də masada qorumağı bacarır. Bəli, doğrudan da heç kim bizim iradəmizə təsir edə bilməz. Biz bunu zamanla bir daha isbat edəcəyik".

**İsmayıl Qocayev**

**Ağ Evin "Demokratiya sammiti"nin bəyannaməsini Ermənistan xüsusi qeydlə imzalayıb. Baş nazir Nikol Paşinyan bəyannamədə Rusiya-Ukrayna müharibəsinin doğurduğu humanitar fəlakətlə bağlı məqamın, Rusiya qoşunlarının Ukraynadan çıxarılması ilə bağlı tələbin yer aldığı bəndi dəstəkləməyib. O, bunu sənədin heç də bütün böhran və münaqişələri əhatə etməməsi ilə əsaslandırıb. Bəhanə olaraq, guya, Azərbaycanın "Ermənistan ərazisinə müdaxilə etdiyini" vurğulamağı da unutmayıb.**



# Biz hər zaman haqlıyıq

## Ermənistan "Demokratiya sammiti"ndə də ortada qaldı

*Siyasi şərhçi Elçin Mirzəbəyli vurğulayıb ki, Azərbaycan Ermənistanın və erməniliyin vazkeçilməz, əvəzolunmaz bəhanəsidir.* Analitik qeyd edib ki, ermənilər məkana, zamana, ölçü və diametrə məhəl qoymadan burunlarını hər yerə perçimləyib, sonradan məlum səbəblərdən çıxara bilməyəndə də günahı Azərbaycanda və azərbaycanlılarda görürlər: "Ağ Evin "Demokratiya sammiti" adlı PR toplantısının gündəliyi isə öncədən bəlliydi. Bu toplantının yekun sənədində Rusiyanın əleyhinə müddəanın da yer alacağını, ağlı başında olan hər kəs bilirdi. Əks təqdirdə bu toplantıya heç ehtiyac da qalmayacaqdı. İrəvan isə ənənəsinə uyğun olaraq, eyni anda həm ABŞ-nin, həm də Rusiyanın yanında olduğunu göruntüləmək istədi və nəticə etibarilə heç birinin yanında ola bilmədi, qaldı ortalıqda. Öz müstəqil və israrla müdafiə etdiyi mövqeyi də yoxdur ki, ona istinad edə bilsin. Nəticədə isə sammitin bəyannaməsinin əsas, təməl müddəasını dəstəkləməyə cəsarət edə bilmədi. Nəzərə alaq ki, bəyannamənin sözügedən müddəasız heç bir əhəmiyyəti yoxdur. O zaman Ermənistanın "Demokratiya sammiti"ndə iştirakının həm Vaşinqton, həm də elə İrəvanın özü üçün heç bir işə yaramadığını deyə bilərik. Bəyannamədə Ermənistanın uydurma iddialarına əsasən, ölkəmizin əleyhinə hansısa mülahizənin yer alması isə sübuta yetirir ki, Azərbaycan özünün olmadığı yerdə belə Ermənistandan dəfələrlə güclü və nüfuzludur. Haqq məsələsinə gəldikdə isə bunu xüsusi olaraq vurğulamağa ehtiyac duymadım. Biz hər zaman haqlıyıq".

**E.Mirzəbəyli bir məqamı da qeyd etməyi vacib sayıb:** "Ermənistan baş nazirinin sammitin bəyannaməsinə əlavəsi, dolayısıyla həm də Vaşintqonun ikili standartlarda günahlandırılması anlamına gəlir. Digər tərəfdən, Ermənistanın konkret faktla bağlı məsələyə etirazının özü belə, ən yaxşı halda ikrah doğurur. Prinsip etibarilə Paşinyanın qoşulmadığı müddəada söhbət Ukrayna ərazisində gedən müharibənin yaratdığı humanitar fəlakətdən və Rusiya qoşunlarının Ukrayna ərazisindən çıxarılması tələbindən gedir. Ukrayna ərazisində gedən döyüşlər bu ölkə və bütövlükdə region üçün humanitar fəlakət yaradıbmı? Yaradıb! Rusiya qoşunları başqa bir ölkənin ərazisinə müdaxilə etdiyi üçün oradan çıxarılmalıdırmı? Çıxarılmalıdır! Bunu BMT Nizamnaməsi tələb edir. Amma Ermənistan uzun illər boyu işğalçılıq siyasəti yürütdüyü və ərazi bütövlüyü kimi mühüm amili nəzərə almadığı üçün səsini belə çıxara bilmir. Nəyə etiraz edəcək? Ermənistan qoşunları 30 il yaxın Azərbaycan ərazilərində idilər, elə indi də Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasına daxil olan ərazilərimizdə tör-töküntüləri qalıb. Çox güman ki, yaxın zaman kəsiyində cəhənnəm olub Ertmənistana qayıdacaqlar, ya da gedəcəklər".

**İsmayıl**

# Maşın bazarı canlanır

## İnsanlar köhnə avtomobillərdən daha bərk yapışacaqlar

**May ayının 1-dən istehsal ili 10 ildən yuxarı olan avtomobillərin ölkə ərazisinə gətirilməsi qadağan edilir. Qərar ictimaiyyətdə ciddi narahatlıq yaradıb. Əsas təşviş isə bu qərar verilənədək xaricdən sifariş edilən avtomobillərin taleyi ilə bağlıdır. Belə ki, hazırda həmin maşınların ödənişi edilsə də, 2-3 aya çatdırılmalıdır. Bəs, xaricdən avtomobil sifariş edən və avtomobili yolda olan şəxslərə istisna güzəşt ediləcəkmi?**

Digər bir ehtimal isə qərarın avtomobil bazarında bahalaşmaya səbəb olacağıdır.

Mütəxəssislər isə Nazirlər Kabinetinin bu qərarının Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirirlər.

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərovun "Şərq"ə açıqlamasına görə, Nazirlər Kabinetinin müvafiq qərarı avtomobil sıxlığının aradan qaldırılmasına, avtomobil parkının yenilənməsinə və ekosistemin yaxşılaşdırılmasına hesablanıb:** "Avtomobil bazarında yaşı 10 ildən artıq olan minik avtomobillərinin payı həddindən artıq. Xüsusən də son illər Gürcüstandan istismar müddəti bitmiş metallom avtomobillərin idxalı artmışdı. Bu baxımdan, yeni qərar istehsal tarixi 10 ildən çox olan avtomobil idxalının məhdudlaşdırılması ekoloji təmiz olan hibrid və elektrik avtomobillərin ölkəyə gətirilməsini stimullaşdıracaq. Eyni zamanda yararsız avtomobillərin dövriyyədən çıxarılması ilə avtomobil parkı yenilənəcək, yol-nəqliyyat hadisələrinə səbəb olan hallar azalacaq. Bu qərar Azərbaycanın "Avro-5" ekoloji standartlara keçidini də tezləşdirəcək. Hazırda ölkəmizdə "Avro-4" standartları tətbiq edilir. Ola bilsin ki, bu qərardan sonra "Avro-5"ə keçidlə bağlı da qərar veriləcək".

Qərarın 30 gün sonra qüvvəyə minəcəyini xatırladan ekspert deyib ki, xaricdən avtomobil sifariş edən və avtomobili yolda olan minlərlə şəxs narahatdır. Xüsusən də Yaponiya, Cənubi Koreya, Amerikadan avtomobillərin gəmi vasitəsilə gətirilməsi ən azı 2 -3 ay çəkir: "Avtomobil idxalçıları idxal etdikləri nəqliyyat vasitəsinin qaimə və digər sənədlərini düzgün təqdim edərlərsə, hansısa problemin yaranmasından söhbət gedə bilməz.

Qərarda da qeyd olunub ki, mart ayının 29-dək (29 mart da daxil olmaqla), yeni məlum qərar elan edilən günədək pulu ödənilərək sifariş edilmiş avtomobillərin ölkəyə daxil olmasına icazə veriləcək. Yəni məsələn, şəxsin martın 29-dək sifariş etdiyi, pulunu ödədiyi avtomobil 2-3 aydan sonra ölkəyə gələndə, ona hər hansı məhdudiyyət tətbiq olunmayacaq. Əks halda ölkəyə gətirilən maşınların limanlarda qalması vətəndaşlarımıza külli miqdarda ziyan vura bilər".

*E.Cəfərovun sözlərinə görə, gələn aydan ikinci əl avtomobil bazarında köhnə maşınların qiyməti 2-3 faizə qədər yüksələcək:* "Sonrakı dövrlərdə isə qiymət artımı ölkədəki qərarlardan asılı olacaq. Ola bilər ki, gömrük rüsumları bir qədər endirilsin. Bu qərardan sonra yeni avtomobillərin isə qiymətlərində kəskin artım gözləmirəm".



*Yeni məhdudiyyət əslində avtomobilləşmə prosesini bir az ləngidəcək, idxal edilən avtomobillərin sayı azalacaq*

**Hüquqşünas, nəqliyyat üzrə ekspert Ərşad Hüseynov isə "Şərq"ə açıqlamasında 10 ildən artıq olan işlənmiş avtomobillərin idxalına tətbiq ediləcək yeni məhdudiyyəti əslində ölkəmizdə avtomobilləşmə prosesini yavaşıtmağa yönələn addım kimi qiymətləndirib.** Ekspertin sözlərinə görə, bu qərar avtomobilləşmə prosesini bir az ləngidəcək, idxal edilən avtomobillərin sayı azalacaq. Amma qərarın hədəflədiyi ictimai faydalı nəticələrin gözlənilən səviyyədə olması inandırıcı deyil. Hətta əksinə, bəzi məqamlarda yeni suallar çıxacağı mümkündür: "Ötən ilin sentyabr ayından başlayaraq Bakı küçələrində tıxaclar daha kəskin xarakter almışdı. ETSN-in keçirdiyi monitorinqlərin nəticəsi kimi havada dəm qazının, azot oksidlərinin və bəzi başqa zərərli maddələrin normadan xeyli çox olduğu barədə məlumatlar da həminin yadındadır. Bu zərərli maddələrin əsas mənbəyinin nəqliyyat vasitələri olduğu da ETSN tərəfindən vurğulanır. NK isə özünün 29.03.2023 tarixli, 94 saylı Qərarını şərh edərkən əsas hədəfin göstərilən problemi həll etmək olduğunu vurğulayıb.

Lakin bu məsələdə ciddi bir səhvə yol verilir. Bizim ölkəmizdə əhali sayına nisbətdə avtomobillərin sayı çox deyil (təxminən hər 100 nəfərə 14 avtomobil düşür). Bizdə əsas problem fərdi avtomobillərdən istifadə səviyyəsinin yüksək olmasıdır. Bunun səbəbi isə ictimai nəqliyyatın bərbad olması, fərdi mobillik üsullarından (velosiped və ona bərabər yerdəyişmə vasitələrindən) çox az istifadə edilməsidir. Ona görə də son qərarın ölkəmizdə ekoloji təhlükəsizliyi əhəmiyyətli dərəcədə artıracağını, yol hərəkəti təhlükəsizliyinə ciddi töhfə verəcəyini, yollarda tıxacları azaldacağını düşünmək doğru deyil".

*Ə.Hüseynovun sözlərinə görə, bu qərardan sonra insanlarımız ölkəmizdə hazırda istismar edilən köhnə avtomobillərdən daha bərk yapışacaqlar, çünki onları yeniləmək şansı xeyli azaldı. Nəqliyyat ehtiyaclarını qarşılayan başqa variant da yoxdur. Bu isə köhnə avtomobillərin daha uzun müddət istismar edilməsini stimullaşdıracaq:* "Əgər bu qərar səmərəli və əlverişli utilizasiya proqramı ilə eyni vaxtda verilsə və icra edilsəydi, köhnə avtomobillərin azalması ehtimalı real olardı. İndiki şəraitdə isə daxili avtoparkda köhnə avtomobillərə ehtiyacın artacağını düşünmək olar. Hətta bu qərar köhnə avtomobillərin bazarda bahalaşmasına da stimul verəcək (bazardakılar belə məsələlərə çox həssas yanaşırlar).

Bundan başqa, mobilliyini ictimai nəqliyyat hesabına təmin edə bilməyən insanlar xaricdən nisbətən az istifadə edilən (yaşı 10-dan az olan) avtomobil gətirməyə meyillənəcəklər. Onlar isə daha bahadır. Nəticədə ölkəmizdən xaricə avtomobil alışı üçün valyuta axını arta bilər. Qısası, ölkədə avtomobillərin ekoloji zərərli təsirini azaltmağın, yol hərəkəti təhlükəsizliyi səviyyəsini artırmağın, yollarımızda tıxacları azaltmağın və aradan qaldırmağın yeganə yolu ictimai nəqliyyatı inkişaf etdirməkdir. Bütün sərmayələr ilk olaraq buna yönəldilməlidir. Buna paralel olaraq əhali üçün cəlbedici və səmərəli utilizasiya da həyata keçirilsə, insanlar köhnə avtomobillərdən inzibati qərarlarla deyil, hətta könüllü olaraq imtina edərlər".

*Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkədə 1,4 milyondan çox minik avtomobili mövcuddur. Bunun 1,3 milyondan çoxu şəxsi minik avtomobillərinin payına düşür.*

Azərbaycanda minik avtomobillərinin yaş strukturu belədir:

- 2 ilə qədər olan minik avtomobilləri 2 faiz;
- 2 ildən 5 ilə qədər olan minik avtomobilləri 3 faiz;
- 5 ildən 10 ilə qədər olan minik avtomobilləri 11,9 faiz.

Beləliklə, yaşı 10 ildən artıq olan minik avtomobillərinin payı 80 faizdən çoxdur.

İstehsal tarixi 10 ildən çox olan avtomobil idxalının məhdudlaşdırılmasının yaradacağı imkanlar:

- Ekoloji təmiz olan hibrid və elektrik avtomobillərin ölkəyə gətirilməsini stimullaşdıracaq;
- Yararsız avtomobillərin dövriyyədən çıxarılması ilə avtomobil parkı yenilənəcək, yol-nəqliyyat hadisələrinə səbəb olan hallar azalacaq;
- Ekoloji təmiz avtomobillərin sayının artması karbon emissiyasının azalmasına və daha sağlam ətraf mühitin olmasına səbəb olmaqla, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in icrasını sürətləndirəcək;
- İnsanların həyat və sağlamlığının və ətraf mühitin qorunması, avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına gətirib çıxaracaq;
- Ölkəmizdə avtomobil istehsalının stimullaşdırılmasına səbəb olacaq;
- Avtomobil istehsalı sahəsi üzrə ixtisaslı kadrların artmasına imkan yaradacaq.

Xatırladaq ki, elektrik mühərriki ilə işləyən avtomobillərin 2019-cu il yanvarın 1-dən etibarən ölkə ərazisinə idxalı əlavə dəyər vergisindən azad edilib. 2022-ci il yanvarın 1-dən elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışı, habelə həmin avtomobillər üçün 2-ci və 3-cü səviyyə elektrik enerji doldurucularının və istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2 500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 3 il müddətinə ƏDV-dən azad edilib.

Nazirlər Kabinetinin 94 №-li qərarı dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Bəşər tarixinin ən dəhşətli soyqırımı

## 1918-ci ilin mart qırğınları xalqımızın yaddaşından heç vaxt silinməyəcək

**Erməni (daşnak) - bolşevik silahlı birləşmələrinin 1918-ci il mart-aprel aylarında törətdiyi qırğınlar, soyqırım aktları dövlətçilik tariximizin faciəvi səhifəsidir. Silahlı daşnak-bolşevik dəstələri təkcə Azərbaycan türklərinə qarşı deyil, yerli əhalidən yəhudilərə, ruslara, başqa azsaylı xalqlara qarşı da soyqırım törədirdilər.**

Məqsəd Azərbaycanın istiqlal yolunu kəsmək, müstəqil, azad dövlətin yaranmasını əngəlləmək idi. Tarix elmləri üzrə fəlsəfə doktoru Akif Aşırlı müəllifi olduğu ”31 mart soyqırımı. 1918-1920-ci illər mətbuatında” kitabında yazır: ”1918-ci ilin mart hadisələrinə baxanda görürük ki, Bakıda, Şamaxıda, Qubada törədilən qırğınlar zamanı ermənilər Azərbaycanda insan kütləsi ilə yanaşı, ziyalıları hədəfə almışdı və həm də milli təsisatlarımızı sıradan çıxartmaq yolunu tutmuşdu. Həmin hadisələr zamanı ”Açıq söz”, ”Kaspi” qəzetlərinin mətbəələri yandırılıb, Orucov qardaşlarının elektrik mətbəəsi dağılıb və s”. Aydın görünür ki, daşnak-bolşevik birləşmələrinin məqsədi xalqımızın milli ruhunu öldürmək, milli ziyalılığı məhv etməklə istiqlal arzularımızı da boğmaq idi. Lakin Azərbaycan milli məfkurəsini həyat amalı hesab edənlər və bu yolda yorulmadan irəliləyən milli mücahidlərimiz istiqlal ideyalarını nəinki öləziməyə qoydu, törədilən qırğınlardan daha da alovlanan istiqlal ziyasında 2 ay sonra Azərbaycan Xalq Cümhuriyyətini elan edə bildilər. Burada A.Aşırlının ”İstiqlal” qəzetinin 1919-cu il sayından gətirdiyi nümunə önəmlidir: ”Dünən, martın 28-də parlaman dairəsində 300-ə qədər müsəlman əmələ və kəsibkarlarının iştirakı ilə bir konfrans əqd olundu. Rəsulzadə Məhəmmədəmin cənablarının rəyasəti və Yusif Ziya bəyin kitabəti ilə inqad edən konfrans keçən sənə martın 18-də vaqe olan (martın 30-na təsadüf edir) faciəələməsinin əsfi xatırlamasını yad etmək məsələsini müzakirə elədi. Üç saata qədər davam edən müzakirə nəticəsində aşağıdakı qətnamə qəbul olundu. Əmələ rayonlarının hər tərəfdən toplanan vəkillərin şurası martın 28-də əqd elətdikləri keçən yıl martın 18-də vaqe olan mart faciə-ələməsinin Azərbaycan muxtariyyat və istiqlal fikri əleyhinə icra edilmiş xainanə bir zərbə olduğunu və qəsd nəticə etibarilə Azərbaycan demokratiyasının zalımanə bir surətdə qətl və talan şəkli alaraq bu gündə tökülən nahaq qanların və verilən şəhid və qurbanların ruhunu yad eləmək üçün martın 31-də bir günlük tətil elan etmək təht qərara aldı. Konfrans tətilin icrası üçün öz arasından tətil komitəsi itxab elədi... Tətil saat 8-dən axşam 6-ya qədər davam edəcək. ”İstiqlal” qəzeti, 1919-cu il 29 mart № 8.” Görünən budur ki, gənc cümhuriyyət mart soyqırımlarının ildönümünün yad edilməsinə xüsusi önəm verib. Dövlətçiliyin əsaslarından birinin xalqın iradəsi olduğunda israr edən cümhuriyyət tarixin qanlı səhifəsinin yaddaşlardan silinməməsi üçün əməli addımlar atır. Daşnak-bolşevik birləşmələrinin müstəqil cümhuriyyətimizi xaincəsinə məhv etmək niyyəti 2 il sonra, təəssüf ki, gerçəkləşsə də, tarixi ədalət yenə öz yerini tapdı və Azərbaycan eyni əsrdə ikinci dəfə istiqlalına qovuşdu. Müstəqil, demokratik ölkə oldu. Lakin yenə də bu yolda erməni xəyanətləri, erməni terroru özünü ən alçaq formada göstərdi. 31 mart soyqırımı ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) yaydığı bəyanatda da bu reallıq əksini tapıb. Bəyanatda bildirilir: ”31 Mart bütün insanlığa qarşı törədilən erməni vandalizminin təzahürlərindən biri kimi tariximizə Azərbaycanlıların Soyqırımı Günü kimi daxil olmuşdur. 1918-ci ildə törədilən bu qanlı hadisələr zamanı on minlərlə dinc azərbaycanlı yalnız etnik mənsubiyyətinə görə erməni millətçilərinin davamlı soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq qətlə yetirildi. Erməni-bolşevik birləşmələri tərəfindən insanlar evlərində diri-diri yandırılıb, həmçinin xüsusi işgəncələrlə və amansızlıqla öldürülüb. Azərbaycanlıların soyqırımı təkcə Bakı şəhəri, Bakı quberniyasına daxil olan şəhər və qəzaları deyil, həmçinin Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər müxtəlif bölgələrimizi əhatə edib. Qədim Azərbaycan torpağı olan İrəvan şəhərində və onun ətrafında 199 kənd dağıdılıb, 132 min azərbaycanlı qətlə yetirilib. Milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və vətəninə bağlı xalqımız soyqırımlarına məruz qalmasına baxmayaraq, milli yaddaşını, kimliyini qoruyub və həmrəylik nəticəsində müstəqilliyimiz bərpa olunub. Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları, təcavüz siyasəti, eyni zamanda xalqımıza qarşı törədilmiş müharibə cinayətləri XX əsrin sonlarında daha da kəskin xarakter alıb, beynəlxalq səviyyədə Azərbaycanın suveren ərazisi kimi tanınmış torpaqlarının iyirmi faizi 30 ilə yaxın işğal altında qalıb. 2020-ci ildə ordumuz tərəfindən həmin ərazilər işğaldan azad olunaraq Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Təəssüf hissi ilə qeyd olunmalıdır ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarına dair kifayət qədər əsaslı sübut və dəlillər olsa da, sülh və insanlıq əleyhinə olan bu cinayətlərə beynəlxalq miqyasda hələ də adekvat reaksiya verilməyib. Dünya ictimaiyyətini və nüfuzlu beynəlxalq təşkilatları tarix boyu ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə və soyqırımı cinayətlərinə siyasi-hüquqi qiymət verərək soyqırımı kimi tanımağa və ədalətin təmin olunmasına dəstək verməyə çağırıram”.

**Millət vəkili, professor Kamilə Əliyeva ”Şərq”ə açıqlamasında bildirdi ki, heç vaxt bir millət və xalq kimi formalaşmağı bacarmayan ermənilər həmişə digər xalqlara qarşı məkrli, düşmən mövqeyi nümayiş etdiriblər:**

- Dövlətçilik prinsiplərindən uzaq, tayfa təfəkkürünü adlaya bilməyən haylar qədim Azərbaycan torpaqlarına köçürüldükdən sonra azərbaycanlılara qarşı havadarlarının köməyi ilə vəhşiliklər, cinayətlər törətməyə başladılar. Ermənilər hər zaman dünyada baş verən əlverişli tarixi proseslərdən istifadə edərək uydurduqları ”Böyük Ermənistan” ideyalarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırım, etnik təmizləmə həyata keçiriblər. XIX əsrdə Çar Rusiyası tərəfindən İrandan Azərbaycan ərazilərinə köçürülən ermənilər 1905-ci ildə soydaşlarımıza qarşı böyük qətliamlar törətdilər. Sonrakı illərdə də ermənilər azərbaycanlılara qarşı vəhşiliklər törətməkdə davam edirdi. 1918-ci ilin mart qırğınları xalqımızın yaddaşından heç vaxt silinməyəcək. 1918-ci ilin mart soyqırımı tək Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı cinayətlərdən biri oldu. Ermənilər azərbaycanlılarla yanaşı bu ərazilərdə yaşayan minlərlə ləzgi, yəhudi, avar, rus millətindən olan insanları da qətlə yetirirdilər. Ermənilər soydaşlarımızı qətlə yetirməklə yanaşı, dini, mədəni-tarixi abidələrimizi də dağıdaraq yerlə yeksan edirdi. 1918-ci ilin mart ayının 31- dən başlayaraq Bakı Sovetinin və ”Daşnaksütyun” partiyasının 10 minədək silahlı dəstələri Bakı şəhərinin azərbaycanlılar yaşayan məhəllələrinə hücum edərək qocaları, qadınları, uşaqları qətlə yetirdilər. 1990-cı illərdə aparılmış tədqiqat nəticəsində məlum olub ki, ermənilər Şamaxı şəhərində 14-16 min, Şamaxının kəndlərində isə 6-8 min nəfər azərbaycanlını xüsusi amansızlıqla qətlə yetiriblər. Quba şəhərində təxminən 2900, Quba qəzası üzrə ümumilikdə 4000 nəfərdən artıq azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilib. Tədqiqatlar zamanı məlum olub ki, burada insanlar odlu silahlarla öldürülməyib, onların başları kəsilib, küt alətlərlə başlarına mismar vurmaqla qətlə yetiriliblər. Baş vermiş bu vəhşiliklər və soyqırımı siyasətinə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən siyasi qiymət verilib. Ulu Öndərin 1998-ci ilin martın 26-da imzaladığı Fərmanla 31 mart ”Azərbaycanlıların Soyqırımı Günü” elan edildi. 2007-ci ildə Qubada tikinti işlərinin aparılması ilə əlaqədar aparılan qazıntı işləri zamanı üzə çıxan kütləvi məzarlıqlarda 500-dək insan kəlləsi (o cümlədən uşaq və qadınlara aid) aşkarlandı. Tədqiqatlarla sübut olundu ki, bunlar 1918-ci ildə ermənilər tərəfindən qətlə yetirilmiş insanların cəsədləridir. Qubada törədilmiş bu soyqırımın dünya ictimaiyyətinə çatdırılması və gələcək nəsillərin yaddaşlarında qorunub saxlanılması məqsədilə Prezident cənab İlham Əliyevin sərəncamı ilə ”Soyqırım memorial kompleksi”nin yaradılmasına qərar verildi, həmçinin erməni-bolşevik dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdiyi soyqırımın dünya ictimaiyyətinə çatdırılması məqsədilə ”1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalanıb.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Baxmut uğrunda döyüşlər gedir

## Putin Hitlerin səhvini təkrarlayır

**Rusiya qoşunları Baxmut şəhərinə hücum etməyə davam edir və qismən uğur əldə ediblər. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatında bildirilib. Məlumatda qeyd olunub ki, bununla belə, müdafiəçilərimiz şəhəri cəsarətlə qoruyur, düşmənin çoxsaylı hücumlarını dəf edirlər: ”Gün ərzində düşmən Donetsk vilayətinin Orexovo-Vasilyevka bölgəsində uğursuz hücum əməliyyatları keçirib”.**

Böyük Britaniyanın Müdafiə Nazirliyi məlumat yayıb ki, Rusiya hakimiyyəti əlavə 400 min hərbçi cəlb etmək üçün böyük kampaniyaya başlamağa hazırlaşır. Vurğulanıb ki, bunun üçün onlara hərbi texnika lazımdır ki, bu da Moskvada mövcud deyil: ”Guya, Rusiya hakimiyyətinin könüllü modelə üstünlük verməsinin səbəbi kadr çatışmazlığını doldurmaq və daxili narazılığı minimuma endirməkdir”. Ukrayna Prezidenti Vladimir Zelenski isə deyib ki, yaxın aylarda Ukrayna ordusu cəbhə xəttində daha fəal ola bilər. Qərb də Kiyevə dəstəyini davam etdirməkdədir. NATO-nun Avropadakı Birləşmiş Qüvvələrinin baş komandanı, general Kristofer Kavoli deyib ki, ukraynalıların potensialını dəstəkləməyə davam edəcəklər ki, onlar qalib gəlsinlər. Onun sözlərinə görə, Rusiya bu müharibədən qələbə ilə çıxa bilməz, bizim gələcəyimiz buna sadəcə dözə bilməz: ”ABŞ və AB həm ikitərəfli proqramlar çərçivəsində, həm də ittifaqın hərbi yardımı çərçivəsində gündəlik olaraq ukraynalılara təlim keçir”.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, Kreml sahibi Vladimir Putin Ukraynanın Baxmut şəhərində Rusiyaya qəbir qazır. Analitik bildirib ki, Rusiya ordusu ”Vaqner” muzdlu qrupu ilə birgə aylardır kiçik şəhəri işğal edə bilmədiyinə görə hər gün böyük itkilər verir:** ”Rusiya bu döyüşlərdə müxtəlif təxminlərə görə 30 minə yaxın döyüşçüsünü itirib. Suriyada, Liviyada və Afrikanın mərkəzi ölkələrində ad və pul qazanan ”Vaqner” Baxmutda ən ağır məhrumiyyətlərlə üzləşib. ABŞ vaxtilə Ukrayna Prezidenti Volodimir Zelenskiyə Baxmutu tərk edib geridə müdafiənin təşkilini təklif etmişdi. Zelenski razılaşmadı və haqlı çıxdı. Ukrayna Prezidenti Baxmutu niyə tərk etməməsini dəmir arqumentlərlə izah edib. Bildirib ki, əgər Baxmut Rusiya qoşunlarına təhvil verilsə, Rusiya Prezidenti Vladimir Putin bu qələbəni Qərbə, öz cəmiyyətinə, Çinə, İrana ”satacaq”. Baxmutun təhvil verilməsi nəticəsində Putin ”qan qoxusunu hiss edəcək” və ukraynalıların zəiflədiyini düşünərək, təzyiqi daha da artırmağa çalışacaq. Digər yandan, Baxmut ruslara təhvil veriləcəyi təqdirdə Ukrayna daxilində siyasi proseslər arzuolunmaz məcraya yönələ və ukraynalıların hakimiyyətə, eləcə də müharibənin gedişinə münasibəti dəyişə bilər”.

**E.Şahinoğlunun fikrincə, Putin Hitlerin səhvini təkrarlayır:** ”Hitler üçün İkinci Dünya müharibəsi zamanı Stalinqradı işğal etmək prinsipial məsələydi. Alman qoşunları şəhərə daxil oldular və aylarla küçə döyüşləri davam etdi. Berlin indiki Moskva kimi hər gün ”şəhər bizimdir” deyərkən sovet qoşunları müqaviməti gücləndirərək şəhəri geri aldılar. Stalinqrad uğursuzluğu Hitler Almaniyasının sonunun başlanğıcı oldu. Putin də eyni yolla gedir”.

**İsmayıl**

# Müşahidə kameralarının sayı artırılmalıdır

## Bakıda “Təhlükəsiz şəhər” sisteminin təkmilləşdirilməsinə ciddi ehtiyac var

**Hipermarketdəki silahlı insident və Səməd Vurğun küçəsindəki atışmadan qısa müddət sonra deputat Fazil Mustafaya qarşı törədilən terror baş verən cinayətlərin açılmasında DİN-in texnologiyalardan, rəqəmsal resurslardan, ”Təhlükəsiz şəhər” sistemindən peşəkarlıqla istifadəsi məsələsini gündəmə gətirib.**



Əsas maraq doğuran sual isə odur ki, cinayətkarlıqla mübarizədə və ictimai təhlükəsizliyin qorunmasında ”Təhlükəsiz şəhər” sistemi müasir tələblərə cavab verirmi? Müşahidə kameraları maskada olan şəxsi identifikasiya etməyə imkan verirmi?

**İKT eksperti Osman Gündüzün sözlərinə görə, ölkəmizdə ”Təhlükəsiz şəhər” sistemi 2009-cu ildən fəaliyyət göstərir. Bu sistem daxilində biometrik identifikasiya, videomüşahidə və s. bu tip alt sistemləri mövcuddur, kütlə içərisindən yalnız axtarılan şəxsi seçməyə və izləməyə, hətta saxta nömrə ilə avtomobili və sahibini identifikasiya etməyə, izləməyə imkan verir:** ”Bununla bağlı Prezidentin 15 may 2009-cu il tarixli fərmanı və NK-nın 2010-cu ildə qəbul edilən qərarları var. Videomüşahidə kameralarının quraşdırılacağı məkanlar, bu işə məsul qurumlar, bu işin reallaşmasına ayrılan vəsaitlərlə bağlı NK-nın qərarına bir neçə dəfə əlavələr də olub.

Əvvəllər DİN-in müşahidə kameraları yalnız əhalinin sıx hərəkətdə olduğu küçə və prospektlərdə, parklarda, idman kompekslərində quraşdırılırdı. Hazırda isə yuxarıda qeyd olunan qərara edilən dəyişikliklərdən sonra müşahidə kameralarının sayı və keyfiyyəti xeyli artırılıb.

Son açıqlanan məlumatlara görə, Bakı şəhərində ”Təhlükəsiz şəhər” sistemində, təxminən 2300 nöqtədə 7 min müşahidə kamerası istifadəyə verilib.

İnkişaf etmiş ölkələrdə isə müşahidə perimetrinə daxil olan ərazilər, hər 100 nəfərə düşən kamera sayı hədsiz yüksəkdir.

Beynəlxalq təcrübəni, inkişaf etmiş ölkələrdə bu istiqamətdə atılan addımları müşahidə etdikdə görmək olar ki, ictimai təhlükəsizliyin qorunması və cinayətkarlığa qarşı mübarizədə ”Təhlükəsiz şəhər” sisteminin təkmilləşdirilməsinə ciddi ehtiyac var.

”Təhlükəsiz şəhər” sisteminin əsas tərkib hissəsi olan videomüşahidə infrastrukturunun qurulması mövcud normalara görə DİN, FHN, Yerli icra qurumları və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib.

Lakin görünən odur ki, bu infrastrukturun inkişaf etdirilməsi və dayanıqlığı ilə bağlı çatışmazlıqlar da var.

Baş verənlər və müasir çağırışlar da tələb edir ki, ”Təhlükəsiz şəhər”in əhatə dairəsi genişləndirilməli, bu məqsədlə Yol xəritəsi hazırlanmalıdır”.

O. Gündüzün sözlərinə görə, yeni tikilən binaların, obyektlərin təhvil-təslimində ”Təhlükəsiz şəhər” sisteminə qoşulan videomüşahidə sisteminin mövcudluğu təmin edilməlidir. Qaydalar bunu tələb etsə də, icrası istiqamətində problemlər var.

Bu sistemin operatoru olan DİN bu prosesdə daha yaxından iştirak etməlidir: ”Yeni tikililərdə telekommunikasiya və videomüşahidə sisteminin mövcudluğu və istismarı ilə bağlı qanunvericiliyə dəyişikliklər edilməlidir.

Müasir dünyanın çağırışlarına uyğun olaraq ”Təhlükəsiz şəhər” sisteminə hətta maskada olan cinayətkarları identifikasiya etməyə imkan verən müasir videomüşahidə sistemləri, təmassız biometrik texnologiyalar quraşdırılmalıdır.

İnkişaf etmiş ölkələr terrorçuluğa qarşı mübarizədə, identifikasiya məsələlərində süni intellekt həllərindən istifadəyə daha çox önəm verirlər. Bu təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiqinə diqqət artırılmalıdır.

”Təhlükəsiz şəhər” sisteminin modernləşdirilməsi, yeni texnologiyaların tətbiqi, kameralardan məlumatların ötürülməsi üçün optik şəbəkənin inkişaf etdirilməsi, məlumatların emal edilməsi üçün Data Mərkəzin gücünün artırılması, digər təhlükəsizlik sistemləri ilə inteqrasiya böyük resurslar və peşəkar kadrlar tələb edir”.

Ekspert deyib ki, dünyada baş verənlər, son zamanlar ölkəmizdə baş verənlər və beynəlxalq təcrübə də göstərir ki, ”Təhlükəsiz şəhər” tipli sistemlər ictimai təhlükəsizliyin qorunması üçün mühüm əhəmiyyət kəsb edir:

”Odur ki, hökumətin bu məsələləri yenidən gündəmə gətirməsi, resurslar ayırması və təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirməsi, düşünürəm ki, faydalı olardı.

Yeri gəlmişkən, videomüşahidə sistemləri ilə toplanan informasiyaların qorunması və bu məlumatlardan sui-istifadə hallarının qarşısının alınması üçün də qanunvericiliyin təkmilləşdirilməsi vacibdir”.

**Şəymən**



## Deputat narazılığını dilə gətirdi

### "Aptekdə çaytikanı adı ilə günəbaxan yağı satılır"

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) məlum addımını qətiyyətlə alqışlayır və dəstəkləyirəm".**

**Bunu "Şərq"ə deputat Rüfət Quliyev Gəncədə aptekdə çaytikanı adı altında günəbaxan yağının satıldığının aşkarlanmasından danışarkən deyib. O vurğulayıb ki, AQTA-nın monitorinq siyasətini bəyənir:**

"Tək aptеklər yox, bütün ticarət şəbəkələrində bu formada yoxlamalar həyata keçirilməlidir.

Həm vaxtı keçmiş, həm də tərkibi müvafiq qaydalara uyğun olmayan saxta məhsulların istehsalçıları, satıcıları ilə mübarizə aparmaq lazımdır. Hüquq-mühafizə orqanları da məsələyə müdaxilə etməlidir. Saxta qidaların satışını reallaşdıran istehsalçılar insanların həyatını təhlükə altında qoyurlar. Bu, böyük problemdir".

Millət vəkili istehlakçılara müraciət edib: "Alıcılar istər aptek, istərsə də ticarət şəbəkələrində saxta qida məhsullarını gördükdə hüquq-mühafizə orqanları, AQTA, İqtisadiyyat Nazirliyinin qaynar xəttinə zəng edib, xəbər verməlidirlər. Biganə qalmaq olmaz. Bu gün istehlakçılar analoji məhsulu görüb, almırlarsa, o deməк deyil ki, sabah heç bir tanış, qohum, qonşuları həmin qidadan zəhərlənməyəcək. Xahiş edirəm ki, bütün alıcılar çox diqqətli olsunlar. İctimai nəzarət də buna deyirlər".

*Qeyd edək ki, AQTA Gəncədə aptekdə çaytikanı adı altında günəbaxan yağının satıldığını aşkarlayıb.*

Sücayət Mehti



**Ölkəmizin 14 bölgəsində azsaylı xalqların nümayəndəsi olan şagirdlər öz ana dilində də təhsil alır I-IV sinifləri üçün "Azsaylı xalqların dili" fənni üzrə hazırlanan dərslik komplektləri növbəti tədris ilində məktəblərə çatdırılacaq. Bu barədə Elm və Təhsil Nazirliyinin məlumatında bildirilib. Qeyd edilir ki, "Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyəti haqqında hesabat"ında ümumi təhsil müəssisələrinin I-IV sinifləri üçün "Azsaylı xalqların dili" fənni üzrə dərslik komplektləri hazırlanıb. Hazırda I-IV siniflər üçün "Talış dili", "Saxur dili", "Xınalıq dili" və I sinif üçün "Haput dili" dərslik komplektlərinin çapı üzrə işlər aparılır.**

# Dərsliklər bəzi bölgələrdəki məktəblərə göndəriləcək

### "Azsaylı xalqların dili" fənni üzrə dərsliklər bütün ölkə məktəblərinə paylanmayacaq

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan Konstitusiyasına və "Təhsil haqqında" qanuna görə, hər bir şəxsin ana dilində təhsil almaq hüququ var:**

- Azsaylı xalqların öz ana dilində təhsil alması insan hüquqlarının tərkib hissəsidir və Azərbaycan dövləti tərəfindən bu hüquq təmin olunur. Azsaylı xalqlar şəxsi muxtariyyət hüququna malikdir, təhsil və mədəni muxtariyyətlərini həyata keçirməkdə sərbəstdirlər. Azərbaycanın qoşulduğu Avropa Xartiyası da bunu ehtiva edir. Azərbaycandakı tolerant mühit zatən bəllidir. Bu mənada bizim hər hansı xartiyanın tövsiyəsinə, qaydalarına riayət etməyimiz gərəkmir. Bütün azsaylı xalqların hüquqları, dilləri, mədəniyyətləri ölkəmizdə qorunur, bu, bizim dövlət siyasətimizin tərkib hissəsidir. Lakin azsaylı xalqların öz ana dilində tədrisi dedikdə, bəzən anlaşılmazlıq yaranır və düzgün izah edilmir. Azərbaycanda dövlət dili Azərbaycan dilidir. Azsaylı xalqlar da həmçinin ilk növbədə Azərbaycan dilində təhsil alır. Eyni zamanda artıq məlum olduğu kimi azsaylı xalqlara öz ana dillərini də öyrənmək, bu dildə təhsil almaq imkanı yaradılıb. Yəni azsaylı xalqların nümayəndələri dövlət dili ilə yanaşı öz ana dillərində də təhsil almaq imkanına malikdirlər. Ölkəmizin 14 bölgəsində azsaylı xalqların nümayəndəsi olan şagirdlər öz ana dilində də təhsil alır. Bura Lənkəran, Lerik, Quba, Qəbələ, Oğuz, Balakən, Zaqatala... və sair bölgələr aiddir. Bunun üçün tədris proqramları, hər cür metodiki vəsaitlər var. Azsaylı xalqların nümayəndələrinin əksəriyyət təşkil etdiyi orta ümumtəhsil məktəblərində ümumən tədris dövlət dilində olsa da, həftədə 2 dəfə ana dili - hər xalqın öz ana dili fənni tədris olunur.

K.Əsədov qeyd etdi ki, "Azsaylı xalqların dili" fənni üzrə dərsliklər bütün ölkə məktəblərinə paylanmayacaq. Azsaylı xalqların kompakt yaşadığı bölgələrdəki məktəblərə göndəriləcək. Bundan əlavə, ana dili fənninin keçilməsi də xalqların nümayəndələrinin öz istəyinə bağlıdır. Bu fənn məcburi deyil, hansı məktəb bu dərsləri və ana dili fənninin tədris olunmasını istəyəcəksə, istəklərinə uyğun olaraq dərsliklər onlara çatdırılacaq.

Məlahət Rzayeva

## Məktəblər hər gün yoxlanmalıdır

### Şagirdlərin həyat və sağlamlığı üçün ehtiyatı əldən vermək olmaz

**"Məktəbi hər gün dərs başlamazdan öncə mühafizəçilər, nəzarətçilər və yaxud inzibati işlərlə məşğul olan şəxslərdən biri yoxlamalıdır".**




*Bunu "Şərq"ə açıqlamasında fiziki tərbiyə dərsində yıxılan şagirdlə bağlı məlumata münasibət bildirərkən təhsilin sosial məsələləri üzrə ekspert Elmar Nurəliyev deyib.*

Ekspert bildirib ki, məktəblərdə mütəmadi şəkildə zirzəmiyə, pilləkanlara, otaqlara baxmaq lazımdır: "Tutalım, uçan-dağılan, qırılma ehtimalı olan pəncərə şüşəsi ola bilər. Kimsə keçəndə üzərinə düşmə ehtimalı var. Mütləq vizual baxış keçirilməlidir.

Məktəbin çöl tərəfinin nəzarətdə saxlanması, kənar şəxslərin daxil olmaması, dərs tədris edilməyən boş sinif otaqlarının bağlı qalması məqsədəuyğundur. İdman, hərbi, əmək dərslərinin keçirilən otaqlarda müəyyən vasitələr, dəzgahlar olduğu üçün ehtiyatı əldən vermək olmaz.

Şagirdlərin həyat və sağlamlığı üçün təhlükə riskini minimuma endirməliyik".

*Qeyd edək ki, Bakı şəhəri 22 nömrəli tam orta məktəb şagirdinin təhsil müəssisəsinin binasından yıxılması xəbəri yayılmışdı. Məktəbdən Oxu.Az-a verilən məlumata görə, şagirdin məktəbdə ikinci mərtəbədən yıxılması ilə bağlı məlumat həqiqəti əks etdirmir: "Bu gün 9 f sinfinin şagirdi (müvafiq səbəbdən şagirdin adı qeyd olunmur) fiziki tərbiyə dərsində yıxılıb və qolundan yüngül xəsarət alıb.*

*Məktəb rəhbərliyi tərəfindən dərhal təcili tibbi yardım çağırılıb, şagirdin ailəsinə məlumat verilib.*

Aygün

**Elan**

Həşimov Məzahir Razim oğluna Bakı şəhəri Biləcəri Bələdiyyəsi tərəfindən 10 dekabr 2010-cu il tarixində verilmiş fərdi yaşayış evinin 300.0 kv.metr torpaq sahəsindən 150.0 kv.metrinə olan bələdiyyə sənədi itdiyi üçün etibarsız sayılır.

Hərracın baş tutmamasına dair elan

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının 15/02/2023 №-li, 15.02.2023-cü tarixli sifarişinə əsasən 1 ədəd "LEXUS GS250" markalı, 99-AK-806 dövlət qeydiyyat nişanlı minik avtomobilinə (Sedan tipli, 2014-cü il buraxılışlı, ağ rəngli, BAN JTHBF1BL005011005, mühərrik №0998566) dair 29 mart 2023-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar (sonuncu) açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 29.03.2023-cü il tarixli hərracın baş tutmaması barədə yekun protokol tərtib edilmişdir.

**Hərracın Təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., K.Kazımzadə 123.**
**Tel: (+99412) 539-47-22 ; (+99450) 210-66-47**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

# Uşaq bağçalarında isti yeməklər veriləcək

### Süd, ağartı və toyuq məhsulları ciddi nəzarətdən keçməlidir

**"Bakıda (bir qisim), Gəncə, Mingəçevir və Bərdədəki dövlət məktəbəqədər təhsil müəssisələrində (uşaq bağçası) uşaqlara isti yeməklərin verilməsi ilə bağlı pilot layihənin icrasına başlanılıb". Bu sözləri Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev deyib.**

Şöbə müdiri bildirib ki, hazırda pilot layihə ilə bağlı tədqiqat gedir və ilkin geridönüşlər müsbətdir: "Aprel ayına qədər tədqiqatı bitirmək niyyətindəyik. Bundan sonra valideynlər və bağça əməkdaşları arasında sorğu edə, yaxud özümüz bağçalarda monitorinq keçirə bilərik ki, bu istəyimiz necə alınır. Yekun rəy əsasında pilot layihənin əhatə dairəsinin genişləndirilməsi və ya təkmilləşdirilməsi barədə qərar verəcəyik".

İsti yeməyin mahiyyətinə gəlincə, nazirlik rəsmisi vurğulayıb ki, əvvəl bağçaya ərzaq verilirdi və oranın xidməti heyəti yeməyi bişirib uşaqlara paylayırdı: "İndi isə misal olaraq, bir ketrinq şirkəti qəbul edilən vahid standartlara uyğun, əvvəldən razılaşdırılmış menyu və qramajlarla yeməyi bişirir və bağçalara təqdim edir. Artıq yeməklərlə bağlı şəffaflıq yaranır ki, heç bir müdaxilə yoxdur. Çünki bəzən verilən ərzaqların "hamısı bişirildimi və ya uşaqların hamısına çatdımı" sualları yaranırdı. İndi



isə bilirik ki, uşağın qarşısına uyğun kaloridə və miqdarda hazır yemək gedir. Bu mənada bizim üçün bu pilot layihə uğurlu modelə oxşayır".

E.Əliyev bağçaların mətbəxinin bağlanacağına dair fikirlərin doğru olmadığını söyləyib: "Bağçanın mətbəxinin müəyyən istifadəsi var. Çünki xidmət yeri yenə də bağçanın özüdür. Bağçanın özünün mətbəxində yeməklərin hazırlanması bağçanın həcmindən asılıdır. Misal olaraq, bir ərazidə 3 yanaşı bağça var, amma kiçik bağçada mətbəx qurulması o qədər də əlverişli olmaya bilər. Həmin bağçalar üçün ketrinq daha sərfəli olar".

Qeyd edək ki, Prezident İlham Əliyevin 2021-ci ilin dekabr ayının 20-də imzaladığı dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında sərəncama əsasən, yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Təhsil Nazirliyinin (hazırda Elm və Təhsil Nazirliyi) tabeliyinə verilib.

**Qida məsələləri üzrə mütəxəssis Ağa Salamov isə "Şərq"ə açıqlamasında bildirib ki, uşaqların sağlam qidalanması mühüm şərtdir. Bağçalar və digər təhsil müəssisələrində sağlam qida məhsullarına üstünlük verilməli, səhərə qida məhsulları saxlanılmamalıdır.**

Pilot layihəni dəyərləndirən A.Salamovun sözlərinə görə, uşaq bağçalarını isti yeməklə təmin edən ketrinq şirkətinin hansı şərtlərdə fəaliyyət göstərməsi çox vacibdir: "Xüsusən də orada çalışan işçi heyətinin 6 aydan bir tibbi müayinədən keçməsi ilə bağlı müvafiq qaydalar tətbiq edilməlidir. Həmin şirkətləri Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) birbaşa nəzarətə götürməlidir. Uşaqların sağlamlığı baxımından qida zəncirində qırılmaların olub-olmaması, riskli qidaların bişirilmə və ərzaqların saxlanılma şəraiti, yeməklərin isti qalmasını təmin etmək üçün hansı qablarda daşınacağı da vacibdir. Şirkətə daxil olan məhsulların mənşəyi araşdırılmalıdır. Onun hansı temperatura oraya çatması məlum olmalıdır. Bəlkə həmin ketrinq şirkəti daha çox gəlir əldə etmək üçün ucuz qiymətə cücərmiş və vaxtına az qalmış ərzaqları alıb yeməklərdə onlardan istifadə edir? Bütün bunlara ciddi nəzarət olunmalı və mütəmani reydlər keçirilməlidir. Süd, ağartı və toyuq məhsulları ciddi nəzarətdən keçməlidir. Toyuqlarda mikrobioloji çirklənmə olduğu zaman, bu, uşaqlara da təsir edir. Ketrinqə gələn ətin emalına ciddi fikir verilməlidir. Onun hansı temperaturlu otaqda emalına ciddi nəzarət tətbiq edilməlidir. Həmçinin onun emal prosesinə fikir verilməlidir. Bütün bunları araşdırmaq lazımdır. Onların şəraiti, temperaturu, hətta ərzaq doğranılan taxtanın təmizliyi araşdırılmalıdır. Ət doğranılan taxta ilə tərəvəz taxtaları ayrılmalıdır. Bu da uşaqlar arasında zəhərlənməyə səbəb olur. Soyuq depolar da yoxlanılmalıdır".

Şəymən

# Uçot dərəcəsinin artırılması Azərbaycana təsir etməyəcək

### Hazırda manatın məzənnəsi üçün hər hansı təhdid yoxdur



**Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 8.75 faizə, faiz dəhlizinin aşağı həddi 7 faizə, faiz dəhlizinin yuxarı həddi isə 9.75 faizə qaldırılıb. Bu qərar daxili və xarici mühitdə qiymət səviyyəsinə azaldıcı və artırıcı təsir göstərən amillərin dinamikası nəzərə alınmaqla verilib.**

AMB-nin İH-nin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı mayın 3-də ictimaiyyətə açıqlanacaq.

**Mərkəzi Bankın uçot dərəcəsini qaldırması ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Eldəniz Əmirov isə deyib ki, son dönəmlər FED və MB-nin monetar siyasətində bir sinxronluq müşahidə edilir.** Bu da ona görə başadüşüləndir ki, qərarda təkcə ölkə daxilində deyil, eyni zamanda xarici faktorların, ələlxüsus FED-in qərarları ilə dolların dəyər dinamikası nəzərə alınıb. Ekspertin sözlərinə görə, uçot dərəcəsinin artırılmasında əsas məqsəd inflyasiyanın cilovlanmasıdır: "Deməli, inflyasiya səngimir ki, bu addım atılır. Digər maraqlı məqam isə Mərkəzi Bankın 2023-cü ildə illik inflyasiyanın 8 faiz ətrafında olacağı proqnozunu yenidən təsdiqləməsidir. Yəni 2022-ci ildəki inflyasiya 6 faiz bəndi azalacaq.

İlk baxışdan verilmiş 8 faizli proqnoz və davamlı uçot dərəcəsində olan artırılmalar təzadlı görünə bilər. Yəni əgər inflyasiya 6 faiz bəndinin enərək 8 faizə düşəcəyi proqnoz edilirsə, niyə uçot dərəcəsi belə sürətlə qaldırılır. Axı uçot dərəcəsinin qaldırılması həm də iqtisadi aktivliyi boğur. Amma aşağı proqnoz və uçot dərəcəsinin artırılması arasında bir məntiqi əlaqə var ki, bu da uçot dərəcəsinin davamlı artırılması həsabına inflyasiyanın 8 faizə endirilməsinə nail olmaqdır.

Yuxarıda da qeyd etdiyim kimi, həm xarici, həm də daxili faktorlardan dolayı bu, vacibdir. May ayının 3-də isə bu məsələ ilə bağlı növbəti qərar veriləcək. 8 faizli proqnoz fonunda mayda da uçot dərəcəsində artım olma ehtimalı çoxdur".

Uçot dərəcəsinin artırılmasının təsirlərinə gəldikdə isə E.Əmirov deyib ki, belə hallarda səs narahatlıq manatın taleyilə bağlı olur: "Amma hazırda manatın məzənnəsi üçün hər hansı təhdid yoxdur. Nəzərə alaq ki, manatın arxasında 9 milyard dollardan artıq valyuta ehtiyatına sahib Mərkəzi Bank durur və manata ciddi təzyiq etməyə hazır olan dolların cilovunu əlində bərkbərk sıxıb saxlayıb. Deməli, hələlik manatın məzənnəsi ilə bağlı hər hansı bir qorxu yoxdur".

Şəymən

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 782



## “Dəmir adam"ın çeynədiyi saqqız 40 minə satılır



**Məşhur ”Dəmir adam” filminin ulduzu Robert Dauninin istifadə etdiyi saqqız hərraca çıxarılıb.**

Aktyorun çeynədiyi saqqız başlanğıc olaraq 40 min 300 dollara satışa qoyulub.

Satıcının sözlərinə görə, saqqızı təxminən bir ay əvvəl aktyor Los-Ancelesdəki Şöhrət Xiyabanında həmkarı Con Favrona zarafatla yapışdırıb. Həmin an saqqız yerə düşüb və satıcı onu götürüb. Bildirib ki, o saqqızı tapdığı vəziyyətdə satır və onu DNT-dən keçirərək yoxlamaq olar.

*Qeyd olunub ki, məhsul plastik qabda göndəriləcək. Saqqızı qaytarmaq mümkün olmayacaq. Hərrac 31 avqustda bitəcək.*

## Tiryək bitkisi əkinləri məhv edilir

### Əfqanıstanda kampaniya başlayıb



**Əfqanıstanın qərbində yerləşən Herat əyalətində narkotiklərlə mübarizə idarəsinin əməkdaşları xaşxaş (tiryək bitkisi) əkinlərinə qarşı kampaniyaya başlayıblar.**

Azərtac xəbər verir ki, bu barədə TOLO News telekanalı hüquq-mühafizə orqanlarına istinadla məlumat yayıb. Əyalətin müxtəlif yerlərində yüzlərlə hektar ərazinin xaşxaşdan təmizləndiyi və kampaniyanın davam etdiyi bildirilir. Narkotiklərlə mübarizə idarəsinin əməliyyatlara cəlb olunmuş əməkdaşlarını xüsusi təyinatlılar müşayiət edirlər. Ölkənin qərbindəki Qor və Badqis, cənub-qərbindəki Nimroz əyalətlərində də xaşxaş əkinlərinin məhv edilməsi əməliyyatlarına hazırlıq görülür. Fermerlər Əfqanıstanın müvəqqəti hökumətini alternativ məhsul yetişdirməkdə onlara kömək etməyə çağırıblar.

Təxminən bir il əvvəl, 2022-ci ilin aprelində ”Taliban” hərəkatının ali lideri Heybətullah Axundzadə Əfqanıstanda tiryək bitkisinin becərilməsini, bütün növ narkotik vasitələrin istifadəsini və daşınmasını, habelə onların ticarətini qadağan edən fərman imzalayıb. Buna baxmayaraq, ölkədə narkotik vasitələr istehsalı artmaqda davam edir. BMT-nin narkotiklər və cinayətkarlıq idarəsinin (UNODC) məlumatına görə, Əfqanıstanda ötən il tiryək istehsalı 2021-ci illə müqayisədə 32 faiz artıb. Bu ölkə dünyanın tiryəkə olan tələbatının 80 faizini ödəyir.



# Hərraca çıxarılacaq

## 70 milyon yaşı olan skelet satılır

**Təqribən 70 milyon yaşı olduğu bildirilən dinozavr skeleti hərraca çıxarılacaq. Bu barədə ”NTV.com.tr” məlumat verib. Məlumatda qeyd olunur ki, 70 milyon il əvvəl yaşamış dinozavrın skeleti 3 T-Rex sümüyündən ibarətdir. Skelet İsveçrənin Cenevrə şəhərində hərraca çıxarılacaq. Bu çox nadir skeletdir. Hündürlüyü 4 metr, uzunluğu isə 12 metrdir.**

Skeletin qiyməti 5-8 İsveçrə frankı təyin edilib. Skelet hərraca çıxarılmadan öncə ictimaiyyətə nümayiş olunur. Bildirilir ki, skelet arxeoloji qazıntılar zamanı tapılmış 3 T-Rex qalıqlarının birləşdirilməsiylə əldə edilib. Hərracı keçirəcək auksion evinin sahibi Kril Koller deyib ki, bu skelet ”TRX-293 Trinity” adlanır. Çünki skelet 3 skelet qalıqlarından ibarətdir və onların hamısı ABŞ-də tapılıb. 293 rəqəmi isə skeletdəki sümüklərin sayını bildirir. İsveçrənin ”Aathal Dinozavr Muzeyi”ndə çalışan paleontoloq Hans Jacob-Siber isə T-Rex skelet qalıqlarının tapılmasını son dərəcə nadir hadisə kimi dəyərləndirərək tapılan skelet qalıqlarının əsl sümüklər olduğunu bildirib. Lakin nadir tapıntının satışa çıxarılması təpkilərlə də qarşılanıb. Təpki göstərənlər bu fikirdədir ki, nadir tapıntı kiminsə şəxsi əmlakı yox, xalqa mənsub olmalıdır.





**Məlahət**

## Alimlər açıqladı

### Yeməyi su ilə yox, çaxırla qəbul etmək xeyirdir



**Yeməyi su ilə qəbul etmək orqanizmə ziyandır. Lakin çaxırla qəbul ermək xeyirdir.**

**”Medicina” xəbər verir ki, yağlı qidaları soyuq içkilərlə qəbul vərdişiniz varsa, bu həzmin demək olar ki, tamamilə dayanmasına səbəb olur. Soyuq içkilərin verdiyi temperatur azaldıqda, yağ birbaşa mədədə donur.**

**Heç bir halda bu içkilərlə yemək içməməlisiniz: soda, şirin şirə, çay, turş südlü içkilər (dietoloqlar onları içki deyil, yemək hesab edirlər). İçməli maye mədədən yeyilən qidadan daha tez çıxmasına səbəb olacaq. Qidanın həzm olunması üçün lazım olan faydalı fermentləri özü ilə yuyub aparacaq. Heç bir halda yeməklə qəhvə və ya çay içməməlisiniz. Bu içkilərin tərkibində mədə şirəsinin tərkibini dəyişən və qidanın tərkibində olan qida maddələrinin sorulmasına zərər verən fenolik birləşmələr var.**

**Yeganə istisna, həzm prosesini stimullaşdıran və yeməyi həzm etməyə kömək edən quru şərabdır. Yeməkdən 40 dəqiqə əvvəl və 30 dəqiqə sonra maye içə bilərsiniz. Araşdırmalara görə, bunun da 4 səbəbi var. Mədənin uzanması - adətən yemək zamanı içməli su, qəbul edilən yeməkdən sonra onsuz da genişlənmiş mədə uzanır.**

**Bu qidanın həzm prosesinin qarşısını almağa səbəb ola bilər. Mədədə ”köhnəlmiş” və siz xoşagəlməz bir ağırlıq, şişkinlik, gurultu, qaz meydana gəlməsinə gətirib çıxardacaq. Mayeləşdirilmiş mədə şirəsinin iştirakı ilə vitaminlərin, mineralların və digər qiymətli maddələrin qidadan sorulması prosesləri pozulur. Eyni şəkildə, bəzi mayelərin (xüsusilə yaşıl çayın) faydaları da bərk qidalarla birləşdirildikdə azalır. Mədə-bağırsaq traktının toxunulmazlığının azalması nəticəsində su, çay və ya digər maye ilə seyreltildikdə mədə şirəsi öz bakterisid xüsusiyyətlərini itirir.**

## O da ərə gedir



**Amerikalı müğənni-bəstəkar Lana Del Rey ailə qurur.**

**Axşam.az xəbər verir ki, 37 yaşlı müğənni 40 yaşlı musiqiçi Evan Vinikerlə nişanlanıb. Cütlük münasibətlərini gizli saxlasa da, ikilinin cəmi bir neçə ay əvvəl münasibətə başladığı ortaya çıxıb.**

***Qeyd edək ki, Rey martın əvvəlində barmağındakı brilyant üzüklə diqqət çəkib.***



# Yalanı anlamanın ən asan yolu tapılıb

## Həqiqəti deyənlər detallara daha çox varır, dəqiq ifadələr işlədirlər



**Niderland alimləri birisinin yalan danışdığını anlamağın ən asan yolunu tapıb. Alimlərə görə, qarşınızdakı insanın yalan danışdığını, sizi aldatdığını başa düşmək elə də çətin deyil. Sadəcə, yalanı ”tanımağın” üsulunu bilmək lazımdır. ”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, insanlar qarşısındakı adamın yalan, yoxsa doğru danışdığını anlamaq üçün adətən əl-qol hərəkətlərinə, üz ifadələrinə diqqət etməyə çalışır.**

Amma bununla da yalanla-doğrunu ayırd etmək çox zaman çətin olur və insanlar bəzən hətta ən yaxın adamlarının yalanlarına məruz qalırlar. Niderland alimləri tövsiyə edir ki, birisinin sizə yalan danışıb-danışmadığını ayırd etmək istəyirsinizsə, ən əvvəl diqqət etməli olduğunuz məsələ detallara varmaqdır. Bir insan danışığında detalların üzərindən sakit keçirsə, daha çox ümumi sözlər, ümumi ifadələr işlədirsə, yalan danışdığı ehtimalı daha böyükdür. Həqiqəti deyənlər detallara daha çox varır, dəqiq ifadələr işlədirlər. Niderland alimlərinin araşdırması ”Nature Human Behaviour” elmi dərgisində nəşr olunub. Alimlər tədqiqata 2 qrup cəlb edib - yalançılar və dürüstlər. ”Yalançı” qrup üzvlərinə rəfdən imtahan suallarını oğurlamaq ”tapşırılıb”. Sonra isə onlardan bunu etmədiklərini söyləmələri, günahsız olmalarını isbat etməyə çalışmaları istənilib. ”Dürüstlər”in toplandığı qrup isə yataqxanada qalıb, prosesdə iştirak etməyib. Üçüncü qrupa isə bu iki qrupun cavabları təqdim olunub. Cavabları araşdıranlar imtahan suallarının həqiqətən kimlər tərəfindən çalındığını ayırd etməkdə çətinlik çəkiblər. Təqiqatçılar üçüncü qrup üzvlərinə ”detallara diqqət edin. Yer, məkan, zaman kimi detalları müfəssəl araşdırın”, deyildiyində qrup üzvləri yalan söyləyənləri müəyyənləşdirə bilib. Ümumi baxış zamanı yalançıların müəyyənləşməsi 59 faiz təşkil edibsə, detallar araşdırıldığında faiz 66-ya yüksəlib. Məlum olub ki, yalanla həqiqəti ayırd etmək üçün detallara diqqət edilməlidir. Bunu bacarsanız, qarşınızdakının sizə yalan danışıb danışmadığını ayırd edə bilərsiniz.

**Məlahət**

## İnsan gündə ən azı 7 saat yatmalıdır

### Uzun müddət yuxusuzluq ciddi problemlər yaradır



**Hazırda insanların iş rejimi, gündəlik məişət həyatında qarşılaşdıqları stress, yorğunluq, əsəb, daxili sıxıntılar, narahatlıq və s. hallar insanlarda yuxu sisteminin pozulmasına, yuxusuzluq sindromuna səbəb olur.**

Uzun müddətli yuxusuzluq isə insanın həyat fəaliyyətinə çox mənfi təsir göstərir. Yuxunun cəmi 4 saat itirilməsi insan reaksiyasını 45 faiz aşağı salır. Yaddaş pisləşir, insanda müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaranır. Yuxu rejimi pozulan insanlar asosial olur və insanlarla münasibət qurmaqda problemlər yaşayırlar.

”PLOS Biology”yə görə, belə insanlarda beyinin bəzi funksiyaları pozula bilir. Bunlardan biri də insanın birgə hərəkət etmək və öz hərəkətlərini başqaları ilə əlaqələndirmək bacarıqlarıdır. Kaliforniya Universitetinin alimləri müəyyən ediblər ki, yuxu pozuntusu beyinin sosial davranışı uğurla idarə etmək qabiliyyətini zəiflədir. Yuxusuzluq təkcə insanların sağlamlığına deyil, həm də sosial qarşılıqlı əlaqəsinə zərər verir.

Mütəxəssislər hesab edir ki, yuxu hər bir canlının öz əqli və fiziki sağlamlığını qoruya bilməsi üçün orqanizmin özünü yenilədiyi bioloji prosesdir. Gündəlik rejimdə baş verən fiziki və zehni yorğunluqdan sonra bədənin istirahət etməsinə şərait yaradır.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Günay İsmayılovanın sözlərinə görə, yuxusuzluq insanı uzun müddət narahat etdiyi təqdirdə ciddi sağlamlıq problemlərinə gətirib çıxara bilər:** ”Yuxusuzluq yuxuya getmək və ya yuxuya getməkdə çətinlik çəkən yuxu pozğunluğudur. Yuxusuzluğun simptomları yuxuya getməkdə çətinlik, gecə ərzində yuxudan tez-tez oyanmaq, səhərlər çox erkən oyanmaq, oyandıqdan sonra yorğunluq hissidir. Yuxusuzluğun yaranma səbəbi isə depressiya, xroniki stress, emosional narahatlıq, gərginlik, hormonal pozğunluq, burun çəpərinin əyriliyidir. Əgər yuxusuzluq insanı uzun müddət narahat edirsə, bu, ciddi sağlamlıq problemlərinə gətirib çıxarır. Nevrotik pozuntular yaranır, yaddaş itkisi, altsheymer, neyrodegenerativ xəstəliklər, ürək-damar xəstəlikləri, yüksək qan təzyiqi, immun sisteminin disfunksiyası, hormonal disbalans riski artır”.

Yuxunun orqanizmin bərpası üçün zəruri olan təbii bioloji proses olduğunu vurğulayan G.İsmayılova deyib ki, sağlam insan yuxusu orta hesabla sutkada 7-8 saat davam etməlidir: ”Normalda yuxu gecə saatlarında olmalıdır. İdeal olaraq insan axşam saat 22:00 ilə 23:00 arasında yatmalı və 3-5 dəqiqə ərzində yuxuya getməlidir. Bu, sağlam yuxu üçün ən optimal vaxtdır. Bu zaman stress hormonu olan kortizolun səviyyəsi azalır, melatonin (yuxu hormonu) isə əksinə, yüksəlməyə başlayır”.

**Şəymən**

## Ancelina Coli ilə birlikdə yaşadığı villasını satdı



**Hollivud ulduzu Bred Pitt Los-Ancelesdə 30 ildir sahibi olduğu malikanəsini satıb.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sənətçi 1910-cu ildə tikilən və keçmiş həyat yoldaşı Ancelina Coli ilə birlikdə yaşadığı evi 39 milyon dollar qarşılığında yeni sahibinə verib. Bred bundan sonra ötən yay 40 milyon dollara aldığı Karmel dağlarındakı evində yaşayacaq.

*Qeyd edək ki, aktyor həmin villa üçün illər əvvəl 1,7 milyon dollar ödəmişdi.*